# NAMAZ QURANDA

وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنسَ إِلَّا لِيَعْبُدُونِ



Niyam Aqil

بسم الله الرحمن الرحيم

# QURANDA NAMAZ

NİYAM AQİL

Tbilisi 2018

Kitabın adı:

**“Namaz Quranda”**

Müəllif:

**Niyam Aqil**

Gürcüstan Müsəlmanları İdarəsi 2018

# Ön söz

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ

وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنسَ إِلَّا لِيَعْبُدُونِ

*"Mən cinləri və insanları yalnız **Mənə** ibadət etmək üçün yaratdım![1]"*

Əlinizdə olan "Quranda Namaz" adlı kitab Qurani-kərimin buyuruqlardan ilham alaraq namaz haqqında söhbət açır. Belə ki, namaz haqqında olan 100-ə yaxın ayəyə uyğun mövzular tərtib edilmiş və məsumlardan (ə) nəql edilən rəvayətlərə istinadən onlara şərhlər verilmişdir.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitabın əhatə etdiyi mövzular aydın şəkildə qələmə alınmış və diqqətin əsas məqsədə yönəlməsi üçün mətnə uyğun, vahid prinsip əsasında başlıqlar seçilmişdir.

Kitabın səciyyəvi imtiyazlarından biri də, namazın əxlaqi-mənəvi yönlərinə diqqət yetirməsi və onun cəmiy-yətdə olan roluna nəzər salmasıdır.

Ümidvarıq, kitab əziz oxucuların marağına səbəb ola-caq və qeyd edilən mövzulardan səmərəli istifadə edəcəklər.

**Niyam Aqil**

[1] "Zariyat", 56.

## Namazın əhəmiyyət və dəyəri

Bütün məsumların (ə) vəzifəsi insanları Allaha ibadət etmə-yə dəvət etmək və  səadət yolunu onlara göstərməkdir. Belə ki, ilahi övliyalar həmişə insanları dini göstərişlərin icrasına çağırmış və onları günah burulğanlarından xilas etməyə çalışmışlar. Bu vacib əməllər arasında, namaz məsumlar üçün böyük əhəmiyyətə malik olmuş və daim  onun hamı tərəfindən həyata keçməsi naminə təlaş etmişlər.

Din göstərişləri arasında heç bir əməl digərinə nisbətdə üstün sayılmır. Lakin, məsumlar (s) yekdil olaraq namazın digər ibadətlərdən üstün olmasını vurğulamışlar. İmam  Sadiqdən (ə) nəql edilən bir hədisdə oxuyuruq:

"Həcc dünya və dünyada olanlardan üstündür. Lakin, bir vacib namaz min müstəhəb namazdan daha dəyərlidir"[1].

Belə bir sual daim insanları maraqlandırır  ki, nə üçün həz-rət Peyğəmbər (s), İmam Əli (ə) və s. məsumlar (ə) namaza bu qədər əhəmiyyət vermişlər? Namazda olan, digər ibadətlərdə olmayan özəllik nədir? Bu sualın cavabı namazın mətnindədir. Əgər namazın zikrlərinə diqqətlə nəzər salsaq, onun Allahın zatı sifətlərinin, fellərinin və yeganəliyinin izharı olduğunu görərik.

Azan və iqaməyə, "Həmd" və "İxlas" surələrinə, rükunun, səcdənin zikrlərinə, təşəhüd və salama diqqət yetirdikdə yaradılış aləminin sirlərinin bəyan edilməsinin şahidi oluruq. Belə ki, Namaz halında Allahın yeganəliyini, böyüklüyünü hiss edir və bu varlıq aləmini Allah kəlamının bir kəlməsi olduğunu duyuruq. Aləmdə hər şeyin yerli-yerində olması isə onu bir sonsuz qüdrət sahibi olan müdrik Tanrı tərəfindən xəlq ediliyini dərk

[1] "Namaz əz didegahe-Quran və hədis", səh. 14.

edirik. Elə buradan da başqa ibadətlərin lüzumu və özünəməxsus  təsir bağışlamalarına baxmayaraq, onların nə üçün namaz qədər önəmli olmaması aydınlaşır. Buna görə də bu ibadətlərin bəzisi insan ömrü boyunca bir dəfə (Həcc kimi), bəzisi ildə bir ay (Oruc kimi) vacib olur və bəzi ibadətlər isə (Cihad kimi) bir çoxlarına nisbətdə heç vacib ollmur.

Həzrət Əli (ə) namazın əhəmiyyətini belə açıqlayır:

“Camaat, namaz qılmağı öhdənizə alın, onu qoruyun, çox namaz qılın və qıldığınız namazla Allaha yaxınlaşın. Namaz müəyyən vaxtlarda möminlərə vacib edilən əmrdir.[1]

Cəhənnəm əhlinin cavabını eşitmədinizmi? Onlardan cəhənnəm əhli olmasının səbəbini soruşduqda deyirlər: “Biz namaz qılanlardan deyildik;”[2]

Gerçəkdən, namaz günahları payız yarpaqları kimi yerə salır, günah zəncirini insanın boynundan uzağa atır. İslam peyğəmbəri (s) namazı bir kişinin evi qabağından axan çeşmənin isti suyuna bənzədirdi. O kişi hər gün o çeşmə suyu  ilə beş dəfə çimsə onda heç bir çirkinlik qalmaz.

Namazın dəyərini  dərk edən həqiqi  möminləri, dünya zinətləri-gözlərinin nuru olan var-dövlət, arvad-uşaq namazdan ayrı sala bilmir. Mütəal-Allah buyurur: “O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi (dəhşətdən ürəklərin duymaqdan, gözlərin

---

[1] “Nisa”,103.

[2] “Muddəssir”, 43.

görməkdən qalacağı) bir gündən (qiyamət günüdən) qorxarlar”[1].

Allahın rəsulu (s) insanları Cənnətlə müjdələdikdən sonra çox namaz qılmaqla özünü zəhmətə salırdı. Çünki, Allah ona buyurmuşdu: “Əhlinə (əhli-beytə və ümmətinə) namaz qılmağı əmr et, özün də ona (namaza) səbirlə davam et (yaxud məişət çətinliklərinə döz). Biz səndən ruzi istəmirik, (əksinə) sənə ruzi verən Bizik. (Gözəl) aqibət təqva sahiblərinindir (müttəqilərindir)!”[2] Beləliklə, İslam peyğəmbəri (s) həmişə ailəsini namaza dəvət edir və özü də bu ibadəti çox böyük məhəbbətlə həyata keçirirdi”.[3]

Qurani-kərimdə namaza verilən dəyər və əhəmiyyətlə daha dərindən tanış olmaq üçün aşağıda daha ətraflı söhbət açırıq.

## Allahı xatırlamağın yolu namazdır

Allah Quranda buyurur:

“فَاذْكُرُونِي أَذْكُرْكُمْ وَاشْكُرُواْ لِي وَلاَ تَكْفُرُونِ”

“Belə isə məni xatırlayın ki, mən də sizi xatırlayım. Mənə şükür edin və (mənim nemətlərimə qarşı) kafir olmayın”[4].

Əgər Allahın bizə yardım etməsini və həmişə Onun diqqətinə layiq olmağımızı istəyiriksə, hər zaman Onu xatırlamalı və yada salamlıyıq. İmam Sadiq (ə) Allahın yada salınmağının necəliyini belə aydınlaşdırır:

---

1 “Nur”, 37.

2 “Taha”,132.

3 “Nəhcul-bəlağə”, xütbə. 199.

4 “Bəqərə”, 12.

Həsən Bəzzazi deyir: İmam Sadiq (ə) mənə buyurdu: "İstəyirsənmi Allahın, bəndələri üçün vacib etdiyi ən çətin əməlləri sənə tanıtdırım?" Dedim: "Bəli". Buyurdu: "Camaatla insafla davranmaq, qardaşa kömək etmək, hər yerdə Allahı yada salmaq. Agah ol, mən Allahı yada salmaq dedikdə "Əlhəmdulillah", "Subhanəllah, "Allahu Əkbər" deməyi nəzərdə tutmuram. Doğrudur, bunlar da Allahı xatırlamaqdır, lakin, Allahı hər yerdə xatırlamaq Onun əmri və ya qadağası ilə qarşılaşdığın zamandır"[1].

Yuxarıda qeyd edilən ayədən məlum olur ki, Allahı həmişə yada salan şəxslər ona şükür edənlərdir. Çünki, malik olduqları hər bir şeyin Onun tərəfindən olduğunu başa düşürlər. Əks təqdirdə, bu xüsusiyyətdən məhrum olan insanlar nankor olub, Allahın nemətlərinin şükrünü etmir, uca Tanrını unudaraq kafir[2] olurlar.

Allah bütün vaxtlarda, istər sübh olsun, istərsə də gecə, yada salınmalı, xatırlanmalıdır. Bu haqda Quranda oxuyuruq:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اذْكُرُوا اللَّهَ ذِكْرًا كَثِيرًا وَسَبِّحُوهُ بُكْرَةً وَأَصِيلًا

**"Ey iman gətirənlər! Allahı çox zikr edin! Onu səhər-axşam təqdis edib şəninə təriflər deyin! "**[3]

Bu xüsusiyyət övliyaların tərk edilməz əxlaqlarından biridir. Allah-taala "Merac" hədisində buyurur: **"Onlar dünyada üç şeyə sevinərlər: Allahın zikri, Allahın məhəbbəti, Allahın razılığı"**[4].

---

[1]"Kafi", c. 2, səh.145.

[2] Məlum mövzuda qeyd edilən kafir olmaqda məqsəd Allaha yox, onun nemətlərinə kafir olmaq anlamındadır.

[3] "Əhzab", 41-42.

[4]"Dost diyarının yolçuları", "Merac" hədisinin şərhi, Ayətuullah Misbah Yəzdi.

Allahı sevən insan onu xatırlayır və bu düşüncələrdən ləzzət alır. Vüsal dəmi yetənədək Allah aşiqlərini məşğul edən və sevindirən Allahın xatırlanması Onun zikridir. İmam Səccaddan (ə) nəql edilmiş duada oxuyuruq: **“Qəlbimi zikrinlə diridir”**[1]. Həqiqətən də Allahın zikri olmadan möminlərin qəlbi ölüdür. Möminlərin şadlığı, qəlblərinin diriliyi Allahı xatırlamaqdan asılıdır. Onu dünya ləzzətləri maraqlandırmır. Həzrət Əli (ə) Tanrının ona bəxş etdiyi əzəmət və məqamına baxmayaraq, həmişə Allahı zikr edərək, onun ən çox şükür edən bəndəsinə çevrilir.

Həzrət Əmirəlmöminin Əlinin (ə) səhabələrindən olan Hubbə Ərəni və Nof Bukalı, Kufədə “Darul-İmarə”nin həyətində uzanmışdılar. Gecə yarısı həzrət Əlini (ə) ahəstə və qeyri-təbii halda iqamətgahdan çıxıb, həyətə doğru gəldiyini gördülər. Qorxu o həzrəti bürümüş, hətta müvazinətini belə saxlaya bilmədiyindən əllərini divara söykəyərək addım-addım, beli əyilmiş halda irəli gəlir və “Ali-İmran” surəsinin bu ayələrini zümzümə edirdi:

إِنَّ فِي خَلْقِ السَّمَاوَاتِ وَالأَرْضِ وَاخْتِلاَفِ اللَّيْلِ وَالنَّهَارِ لآيَاتٍ لِّأُوْلِي الألْبَابِ الَّذِينَ يَذْكُرُونَ اللّهَ قِيَامًا وَقُعُودًا وَعَلَىَ جُنُوبِهِمْ وَيَتَفَكَّرُونَ فِي خَلْقِ السَّمَاوَاتِ وَالأَرْضِ رَبَّنَا مَا خَلَقْتَ هَذا بَاطِلاً سُبْحَانَكَ فَقِنَا عَذَابَ النَّارِ رَبَّنَا إِنَّكَ مَن تُدْخِلِ النَّارَ فَقَدْ أَخْزَيْتَهُ وَمَا لِلظَّالِمِينَ مِنْ أَنصَارٍ رَّبَّنَا إِنَّنَا سَمِعْنَا مُنَادِيًا يُنَادِي لِلإِيمَانِ أَنْ آمِنُواْ بِرَبِّكُمْ فَآمَنَّا رَبَّنَا فَاغْفِرْ لَنَا ذُنُوبَنَا وَكَفِّرْ عَنَّا سَيِّئَاتِنَا وَتَوَفَّنَا مَعَ الأبْرَارِ رَبَّنَا وَآتِنَا مَا وَعَدتَّنَا عَلَى رُسُلِكَ وَلاَ تُخْزِنَا يَوْمَ الْقِيَامَةِ إِنَّكَ لاَ تُخْلِفُ الْمِيعَادَ

**“Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində (bir-birinin ardınca gəlib-**

---

[1] “Biharul-ənvar”, c. 98, səh. 89.

**getməsində) ağıl sahibləri üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən açıq) dəlillər vardır.**

**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru!**

**Ey Rəbbimiz! Sən cəhənnəm oduna atdığın şəxsi, əlbəttə, rüsvay edərsən və zalımlara kömək edən olmaz!**

**Ey Rəbbimiz! Həqiqətən, biz: "Rəbbinizə inanın!" - deyə imana tərəf çağıran bir kimsənin çağırışını eşidib Sənə iman gətirdik. Ey Rəbbimiz! İndi günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç (böyük günahlarımızı bağışla, kiçik günahlarımızın üstünü ört) və canımızı yaxşı əməl sahibləri ilə bir yerdə al !**

**Ey Rəbbimiz! Öz peyğəmbərlərin vasitəsilə bizə vəd etdiklərini ver və qiyamət günündə bizi rüsvay etmə! Əlbəttə, Sən Öz vədinə xilaf çıxmazsan!"**[1]

Yataqlarında uzanan Hubbə və Nof həzrət Əlinin (ə) az qala huşdan gedə biləcək halda bu ayələri tilavət etməsini görürdülər. Hübbə heyrətamiz halda baxır, Nof isə gördüyü səhnənin təsirindən göz yaşı axıdırdı. Həzrət Əli (ə) Hubbənin yanına çatdıqda buyurdu:

- Yatmısan, yoxsa oyaqsan?

- Oyağam, ey möminlərin agası. Əgər sən Allahın əzəmətindən belə qorxursansa, onda vay olsun bizim halımıza!

---

[1] "Ali-imran",190-194.

Əmirəlmöminin (ə) başını aşağı salıb ağladı və bu zaman buyurdu:

- Ey Hubbə, biz hamımız bir gün Allahın hüzurunda saxlanılacağıq. Bizim heç bir əməlimiz Ona gizli deyil. O, mənə, sənə boynumuzun damarından da yaxındır. Heç bir şey bizimlə onun arasında sədd ola bilməz". Sonra üzünü Nofa tutub:

- Yatmısan?

- Yox, ey Əmirəlmöminin, oyağam və ağlayıram.

- Ey Nof, əgər bu gün Allahın qorxusundan çox ağlasan, sabah (Qiyamət günü) gözlərin işıqlı olacaq. Ey Nof, Allahın qorxusundan gözdən tökülən bir damla yaş dəryalar qədər cəhənnəm odunu söndürür. Ey Nof, heç kəsin məqamı Allahın qorxusundan ağlayanın və ona görə məhəbbət bəsləyənin məqamından üstün deyil. Ey Nof, Allahı sevən və bütün sevdiklərini də Allaha görə sevən və heç nəyi Allahın məhəbbətindən üstün tutmayan və Allaha görə bəzi şeylərlə düşmən olan şəxsin məhəbbət və nifrəti yalnız yaxşılıqlarla cavablandırılacaq. Bu məqama çatdığınız zaman bilin ki, imanınız kamildir.

Hubbə və Nofa moizə etdikdən sonra buyurdu:

- Allahdan qorxun, mən bunu sizə çatdırdım.

Sonra onlardan ayrılıb yenə də öz münacatına başladı:

- Allahım, kaş biləydim, mən səndən qafil olan zaman səndəmi məndən üz döndərirsən, yoxsa mənə diqqət yetirirsən? Kaş biləydim, uzun-uzadı qəflətdə yat-mağım və sənin şükrünü yerinə yetirməkdə səhlənkarlıq etdiyim bir halda sən mənim haqqımda nə düşünür-sən?"

Hubbə və Nof nəql edirlər: “Allaha anad olsun, o Həzrət (ə) səhərə qədər münacatını davam etdi”[1].

İslam dininin sütunu hesab edilən namaz uca Allahı xatırlamaq, onu zikr etmək üçün ən mühüm vasitələrədən biridir. Hər bir şəxs gün ərzində müxtəlif vaxtlarda Allaha namaz qılmaqla Onun əzəmətini, sonsuz qüdrət sahibi olduğunu yada salır. Bu haqda Qurani-Kərimdə oxuyuruq:

إِنَّنِي أَنَا اللهُ لَا إِلَٰهَ إِلَّا أَنَا فَاعْبُدْنِي وَأَقِمِ الصَّلوٰةَ

**“Mən, həqiqətən, Allaham. Məndən başqa heç bir tanrı yoxdur. Mənə ibadət et və Məni anmaq üçün namaz qıl!”**[2]

Bu əmrə tabe olmayan şəxslər zaman ötdükcə Xaliqlərini unudacaq və şeytan bu fürsətdən istifadə edərək onları azğınlığa sürükləyəcəkdir.

## Namaz İlahi dəstəkdir

Yaşadığımız dünya müxtəlif çətinliklərlə dolu olan bir məkandır. Bütün bu çətinliklərə sinə gərmək, sıxıntılarla mübarizə aparmaq hər şəxsin ümdə vəzifələrindən biri sayılır. Lakin, hər bir problem maddi səylər nəticəsində öz həllini tapa bilmir. İnsan iki qütblu - həm cism və həm də ruhdan ibarət olduğu üçün mənəvi aləmə də diqqət yetirməli və bu vasitə ilə İlahi rəhmətə qovuşaraq özünü zamanın amansız fırtınalarından amanda saxlamalıdır. Quari-Kərimin buyuruğuna əsasən, insana dəstək verən ən əsaslı mənəvi qüvvələrədən biri də na-

[1] “Biharul-ənvar”, c. 9, səh. 589.

[2] “Taha”, 14-cü ayə.

mazdır. Bu haqda "Bəqərə" sürəsinin 45-ci ayəsində oxuyururq:

وَاسْتَعِينُواْ بِالصَّبْرِ وَالصَّلوة

**"Səbr və namazdan dəstək alın!"**

Məlum sürənin 153-cü ayəsində yenə də iman sahiblərinə xitab olaraq belə buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اسْتَعِينُواْ بِالصَّبْرِ وَالصَّلوةِ

**"Ey iman gətirənlər, səbr və namazdan dəstək alın"**

Burada belə bir sual yarana bilər ki, yalnız bir küncə çəkilib namaz qılmaqla bütün çətinlikləri həll etmək necə mümkündür?

Suala cavab olaraq qeyd edilməlidir ki, ayədə məqsəd namazın mənəvi köməyidir. Belə ki, Allahla söhbətindən güc alan şəxs yeni bir ruhiyyə ilə həyata qayıdır, süstlük, tənbəllik ondan uzaqlaşır və bu, onun daha da çevik olmasına səbəb olur. Məsələn, heç bir dəyəri olmayan bir taxta parçası şikəst şəxsin ayaqda qalmasına, hərəkət etməsinə və ən nəhayət cəmiyyətdə öz mövqeyini tapmasına zəmin yaradır. İlahi nur sayılan namazın insan həyatına bundan qat-qat çox təsir göstərir.

İslam peyğəməri (s) çətinliklərlə qarşılaşdığı zaman namaza sığınır və bu mənəviyyat kanının əzəmətindən faydalanırdı. Belə ki, İmam sadiq (ə) buyurur: "Allahın rəsulu narahat olduğu zaman namaz qılırdı"[1].

---

[1] "Sünənun-Nəbi".

Böyük mütəfəkkir, həkim-cərrah Əbu Əli Sina hər hansı bir elmi məsələni həll etməsində çətinlik çəkdiyi zaman namaz qılıb, Allaha dua edərdi. O, bu haqda deyir: "Zehnim kütləşdikdə, hər hansı bir elmi məsələni həll edə bilmədiyimdə dəstəmaz alır, İmam Hüseynnin (ə) türbətini qarşıma qoyub, üzü qibləyə tərəf iki rükət namaz qılır əqlin, düşüncənin Allahına pənah apararaq ondan imdad diləyirdim. Namazdan sonra Allaha təvəssül edib, yenidən o səhifəni oxumağa başlayırdım. Bu zaman mənə fikri, elmi ilhamlar olur və mən ən dərin elmi məsələləri həll edirdim"[1].

Əbu Əli Sina kimi bir şəxsi elm qüruru aldada bilməyib, Allaha səcdə qılaraq, razü-niyaz edibsə, biz elmi az olan insanlar bu məsələlərdə daha diqqətli olmalıyıq.

Ümumiyyətlə, Allahı zikr etmək, mübarək adlarına sığınmaq, ona təvəkkül etmək və bütün bunlardan əldə edilən ruh yüksəkliyi ilə çalışmaq çətinliklərin həlli üçün ən böyük vasitədir. Rəvayətdə qeyd edilir , İslam peyğəmbərinin (s) əziz qızı həzrət Zəhra (s) ev işlərinin ağırlığından çətinlik çəkdiyi üçün atasından bir kəniz istədikdə Peyğəmbər (s) bunun mümkün olmadığını anladaraq ona sıxıntılarının qarşısını ala bilməsi üçün bir zikr öyrədir.

## Namaz Allaha təşəkkür etməkdir

Biz insanlar həmişə hansısa bir şəxsin bizə etdiyi yaxşılığın müqabilində ona təşəkkür edir və hər bir vasitə ilə onun əvəzini qaytarmağa çalışırıq. Əks təqdirdə, tərəf müqabilinə hörmətsizlik etdiyimizi düşünürük. Mütəal Allah hər an bizə yaxşılıq

[1] "Gəncineyi-maarif", səh.741.

edir, hamıya saysız nemətlər təqdim edir, bizi kamala doğru aparır, dünya və axirət səadətimizi təmin edir. Belə olan halda biz Yaradanımızın etdiyi bu yaxşılıqlar qarşısında təzim edib, ona təşəkkür etməməliyikmi?

Allah Qurani-kərimdə buyurur:

مَّا يَفْعَلُ اللّهُ بِعَذَابِكُمْ إِن شَكَرْتُمْ وَآمَنتُمْ وَكَانَ اللّهُ شَاكِرًا عَلِيمًا

**“Əgər siz şükür etsəniz və iman gətirsəniz, Allah sizə nə üçün əzab versin ki, Allah şükrə qiymət verəndir, (hər şeyi) biləndir!”** [1]

Şükr etmək neməti artırdığı kimi, nankorluğun aqibəti isə əzabla nəticələnir. Allah buyurur:

وَإِذْ تَأَذَّنَ رَبُّكُمْ لَئِن شَكَرْتُمْ لأَزِيدَنَّكُمْ وَلَئِن كَفَرْتُمْ إِنَّ عَذَابِي لَشَدِيدٌ

“(Ey camaatım!) Yadınıza salın ki, o zaman Rəbbiniz bunu bildirmişdi: "Əgər (Mənə) şükür etsəniz, sizə (olan nemətimi) artıracağam. Yox, əgər nankorluq etsəniz, (unutmayın ki,) Mənim əzabım, həqiqətən şiddətlidir!”[2]

Şükür etməyin xeyri Allaha yox, əksinə insanların özünə qayıdır. Bu haqda Allah Qurani-kərimdə Süleyman peyğəmbərin (ə) dilindən belə nəql edir:

قَالَ الَّذِي عِندَهُ عِلْمٌ مِّنَ الْكِتَابِ أَنَا آتِيكَ بِهِ قَبْلَ أَن يَرْتَدَّ إِلَيْكَ طَرْفُكَ فَلَمَّا رَآهُ مُسْتَقِرًّا عِندَهُ قَالَ هَذَا مِن فَضْلِ رَبِّي لِيَبْلُوَنِي أَأَشْكُرُ أَمْ أَكْفُرُ وَمَن شَكَرَ فَإِنَّمَا يَشْكُرُ لِنَفْسِهِ وَمَن كَفَرَ فَإِنَّ رَبِّي غَنِيٌّ كَرِيمٌ

---

1 “Nisa”, 147.

2 “İbrahim”, 7.

“(Süleyman taxtın daha tez gətirilməsini istədi) Kitabdan (Allahın kitabından, yaxud lövhi-məhfuzdan) bir qədər xəbəri olan birisi (Cəbrail, yaxud Xızır və ya Süleymanın çox ağıllı və tədbirli vəziri Asəf ibn Bərxiya) dedi: "Mən onu sənə bir göz qırpımında (gözünü yumub açınca) gətirərəm!" (Süleyman) onu (taxtı) yanında hazır durmuş görüncə dedi: "Bu, Rəbbimin lütfündəndir (mərhəmətindəndir). Məni imtahana çəkməyi üçündür ki, görək (Onun nemətinə) şükür edəcəyəm, yoxsa nankor olacağam! Kim (Rəbbimin nemətinə) şükür etsə, yalnız özü üçün (öz xeyrinə) şükür edər; kim nankor olsa, (bilsin ki) həqiqətən, Rəbbim (onun şükrünə) möhtac deyil, kərəm sahibidir!" (Allah dünyada qədirbilənə də, nankora da, möminə də, kafirə də lazımınca ruzi və gün-güzəran verər, çünki O, tükənməz mərhəmət sahibidir!)”[1].

Həzrət İsa (ə) bir gün kor, cüzam xəstəliyinə tutulmuş və hər iki tərəfi iflic olan bir kişi gördü. Xəstəliklərin çoxluğuna baxmayaraq, kişi deyirdi: “Məni bir çox xəstəliklərdən uzaq edən Allaha şükürlər olsun”. İsa (ə) ondan soruşdu: “ Sən bütün xəstəliklərə tutulmusan. Bəs hansı xəstəliyə tutulmamağın qorxusundan Allaha şükür edirsən?” Kor kişi dedi: “Bəzi şəxslər mənim tanıdığım qədər Allahı tanımırlar. Mən bu baxımdan onlardan üstün olduğum üçün şükür edirəm”. İsa (ə) buyurdu: “Doğru deyirsən, əlini mənə ver”. O kişi əlini ona uzatdı. Həzrət İsa (ə) onun əlindən tutub bütün xəstəliklərini sağaltdı və o gündən sonra həzrət İsanın (ə) dostlarından birinə çevrildi[2].

---

[1] “Nəml”, 40.

[2] “Kəşkül”, Şeyx Bəhayi.

Təşəkkür etməyin müxtəlif üsulları var. Bəzən biz bir yaxşılığa qarşılıqlı cavab verir və bunu edilən təşəkkür kimi qəbul edirik. Allah-taalanın yaxşılıqlarının zərrəsini belə qaytara bilmədiyimiz halda ona edilən təşəkkürlər başqa cür olmalıdır. Məsələn, Allahın verdiyi nemətləri lazımi yerlərdə istifadə edilməsi onların şükrüdür və bu şükür etmə nemətin davamlı olmasına səbəb olur. Rəsuli-əkrəmdən (s) nəql edilən bir hədisdə oxuyuruq:

"Nemətin şükrü onun davamlı olmasına zəmanətdir"[1].

Allah yanında şükretmə vasitələrindən ən önəmlilərindən biri də bəndənin ona pərəstiş edib namaz qılmasıdır. Qurani-kərimdə oxuyuruq:

يَا أَيُّهَا النَّاسُ اعْبُدُواْ رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ وَالَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

**" Ey insanlar, Allaha itaət edin, o kəsə ki sizi və sizdən qabaqkıları xəlq etdi. Bəlkə təqvalı olasınız"**[2]

Göründüyü kimi, Allah bu ayədə insanları xəlq etməsini önə çəkir və bu yolla onlara zəif olduqlarını, bütün varlıqlarının Onun tərəfindən olduğunu xatırlayır, ibadət və itaətə layiq olduğunu onlara anladır.

Həzrət Peyğəmbər (s) ibadət zamanı çox ayaq üstə qalmaqdan ayaqları şişər, uzun-uzadı gecə namazı qılmaqdan çöhrəsi saralar və ibadət halında çox ağladığı üçün özündən gedərdi. Bir nəfər o həzrətə dedi: "Məgər Allah Qurani-kərimdə sizin haqqınızda "لِيَغْفِرَ لَكَ اللَّهُ مَا تَقَدَّمَ مِن ذَنبِكَ وَمَا تَأَخَّرَ" **"Allah (bununla) sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq,"**[3]

---

[1] "Nəhcul-fəsahə", "Şükr" bölümü.

[2] "Bəqərə", 21.

[3] "Fəth", 2.

deyə buyurmadımı? Niyə özünüzə bu qədər əziyyət verirsiz?” Rəsuli-əkrəm cavabında buyurdu:

افلا اكون عبد شكوراً

“Allahı şükür edən bir bəndə olmayımı?”[1]

Bəzən bir çox insanlar özünü məramlı, əqidəli və həmişə haqq tərəfdarı kimi göstərir və “çörək kəsdikləri şəxsin” ehtiramını heç zaman tapdalamadıqlarını deyirlər. Lakin, əməllərinə baxdıqda bütün dediklərinin əksinin şahidi oluruq. Belə ki, onların din hökmlərinə əməl etməmələrini, Allahın qadağan etdiyi şeylərin ardınca olduqlarını müşahidə edirik. Əcəba, bu etinasızlıqlar, süfrəsində düz-çörək kəsib, ətə-qana, boya-başa çatmağımız Allaha qarşı ehtiramsızlıq, üsyan deyil-mi? Əgər İslam peyğəmbəri (s) Allahın nemətlərinin şükrünü etmək üçün ayağı şişənə qədər ibadət edirsə, bəs bizim vəzifəmiz nədir?

## Namaz məada inancın nişanəsidir

Məad - insanın ölümdən sonra dirilməsinə olan inancdır. Bu haqda Qurani-kərimdə oxuyururq:

فَانظُرْ إِلَى آثَارِ رَحْمَتِ اللَّهِ كَيْفَ يُحْيِي الْأَرْضَ بَعْدَ مَوْتِهَا
إِنَّ ذَلِكَ لَمُحْيِي الْمَوْتَى وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

**(Ya Rəsulum!) Sən Allahın rəhmətinin (yağışının) əsər-əlamətinə bax ki, torpağı öldükdən sonra necə dirildir.**

[1] “Biharül-ənvar dastanları”, c. 4, səh. 20.

**Doğrudan da, O, ölüləri dirildəndir. O (Allah) hər şeyə qadirdir!**[1]

Bu məsələyə şübhə ilə yanaşanlar üçün Allah-taala Quranikərimdə gözəl bir misal çəkir:

قُلْ " رَمِيمٌ وَضَرَبَ لَنَا مَثَلًا وَنَسِيَ خَلْقَهُ قَالَ مَنْ يُحْيِي الْعِظَامَ وَهِيَ"

يُحْيِيهَا الَّذِي أَنشَأَهَا أَوَّلَ مَرَّةٍ وَهُوَ بِكُلِّ خَلْقٍ عَلِيمٌ

**"Öz yaradılışını unudub: "Çürümüş sümükləri kim diriltə bilər?!" - deyə, hələ Bizə bir məsəl də çəkdi.**

**(Ya Peyğəmbər!) De: "Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu (yaradılışından əvvəl də, sonra da) çox gözəl tanıyandır!"**[2]

Bütün bunlara etiqad bəsləyən şəxslər bu dünyada ömrlərini səmərəli istifadə etməklə Allahın dini göstərişlərinə əməl etməlidirlər. Əks təqdirdə dünyadan köçdükdən sonra qarşılaşdıqları peşmançılığın bir faydası olmayacaqdır. Quran belə şəxslər haqqında buyurur:

حَتَّى إِذَا جَاءَ أَحَدَهُمُ الْمَوْتُ قَالَ رَبِّ ارْجِعُونِ لَعَلِّي أَعْمَلُ صَالِحًا فِيمَا تَرَكْتُ

كَلَّا إِنَّهَا كَلِمَةٌ هُوَ قَائِلُهَا وَمِن وَرَائِهِم بَرْزَخٌ إِلَى يَوْمِ يُبْعَثُونَ

**"Nəhayət, (müşriklərdən) birinin ölümü gəlib çatdığı zaman o belə deyər: "Ey Rəbbim! Məni geri (dünyaya) qaytar!**

**Bəlkə, (indiyə qədər) zay etdiyim ömrüm müqabilində yaxşı bir iş görüm! (Yaxud, bu günə qədər tərk etdiyim imana qayıdıb saleh bir əməl edim!) Xeyr, bu onun dediyi boş**

---

[1] "Rum",50.

[2] "Yasin", 78-79.

**(faydasız) bir sözdür. Onların önündə dirilib (haqq-hesab üçün Allahın hüzurunda) duracaqları günə (qiyamət gününə) qədər maneə (öldükdən sonra qiyamətədək qalacaqları bərzəx aləmi) vardır."**[1]

İslam Peyğəmbəri Allahın göstərişlərinə əməl etməməyi böyük təhlükə hesab edir. Bu haqda tarixdə oxuyuruq:

"Besətin (həzrət Məhəmmədin (s) peyğəmbərliyə seçildiyi zaman) ilk illəri idi. İslam Peyğəmbəri (s) "Səfa" dağına çıxıb fəryad çəkərək təhlükə hiss etdiyini söylədi. Camaat Peyğəmbərin (s) başına toplaşaraq, hansı hadisənin baş verdiyini bilmək istədilər. İlk olaraq Peyğəmbər(s) xalqdan belə bir təsdiq aldı: "Ey camaat, sizin mənim haqqımda fikriniz nədir?" Hamı cavab verdi: "Sən əmin və doğru danışansan". Peyğəmbər buyurdu: "Əgər mən sizə desəm ki, düşmən qoşunu ilə bu dağın arxasına gəlib sizə hücum etmək istəyir, mənim söz-lərimə inanarsınızmı?" dedilər: "Bəli, iananarıq". O Həzrət (s) bu təsdiqdən sonra buyurdu:

اني نذير لكم بين يدى عذاب شديد

"Mən sizə böyük bir təhlükənin olduğunu xəbər verirəm. Sizin getdiyiniz bu yolun (Allahın əmrlərinə itaət etməməyiniz) sonu dünya və axirətdə şiddətli ilahi əzabdır"[2].

Bu baxımdan ən kiçik işlərə belə diqqətlə yanaşmalı, İslam əxlaqına uyğun şəkildə davranmalı və dininin təklif etdiyi həyat tərzi sürrmək lazımdır. Çünki, Allah dərgahında hər bir kiçik

[1] "Möminin", 99-100.

[2] "Sireyi- nəbəvi", Şəhid Mütəhhəri, səh.107.

əməl, istər xeyir, istərsə də şər olsun, hesabı sorulur və Qiyamət günü əvəzi verilir. Qurani-kərimdə oxuyuruq:

فَمَنْ يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْراً يَرَه وَمَنْ يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ شَرّاً يَرَه

**"Zərrə qədər yaxşı iş görən şəxs əvəzini görəcəkdir, zərrə qədər pis iş görsən şəxs əvəzini görəcəkdir"**[1].

Belə bir prinsipi olan dinin ardıcılı hər bir göstəriş qarşısında özünü təslim edir və böyük səylə onların icrasına başlayır.

Bir nəfər Peyğəmbər (s) məscidinə daxil olub dedi: "Ey Allahın rəsulu (s), mənə Quranı öyrət". Allahın Rəsulu (s) Quranın öyrədilməsi üçün onu səhabələrinin birinə tapşırdı.

Peyğəmbərin səhabəsi onun əlindən tutub bir kənara çəkdi və "Zilzal" sürəsini onun üçün oxumağa başladı.

**"Zərrə qədər yaxşı iş görən şəxs əvəzini görəcəkdir, zərrə qədər pis iş görsən şəxs əvəzini görəcəkdir"** ayəsinə çatdıqda Quran öyrənmək istəyən şəxs bir az fikrə getdikdən sonra soruşdu: "Bu cumləni də Allah nazil etmişdir?" Səhabə dedi: "Bəli". O kişi dedi: "Mən dərsimi bu ayədən öyrəndim". Yəni bu ayə doğru yolu tanımaq və onu keçmək üçün kifayət edir.

Sonra Peyğəmbərin (s) səhabəsi o Həzrətin (s) yanına gedib, baş vermiş hadisəni ona danışdı. Bu zaman Allahın rəsulu (s) buyurdu:

"Onu azad buraxın. Həqiqətən də o, haqqı tapmışdır"[2].

Dеmək, özünü aciz hiss edən, çətin bir gündə - Qiyamətdə əlindən heç nə gəlməyəcəyini bilən şəxs Allaha səcdə edir, ona

---

[1] "Zilzal", 8-9.

[2] "Təfsiri-nümunə", c. 27, səh. 231-232.

baş əyir və baş verəcəyi şübhəsiz olan o ağır gündə Onun şəfaətinə ümid bəsləyir.

Allah Qurani-kərmdə də məada inananların namaz qılan olduqlarını yad edir:

وَالَّذِينَ يُؤْمِنُونَ بِالآخِرَةِ يُؤْمِنُونَ بِهِ وَهُمْ عَلَى صَلاَتِهِمْ يُحَافِظُونَ

"Axirətə iman gətirənlər ona (Qurana) inanır və namaz qılırlar"[1].

Gerçəkdən Quran oxuyub, ölümdən sonrakı həyata inanan şəxslər bəndə olduqlarını dərk edərək uca Allahın əmrlərinə itaət edir və namaz qılırlar.

## Namaz dini qardaşlıq şərtidir

Namazın üstün keyfiyyətlərindən biri də cəmiyyəti səmimiyyətə doğru sövq etməsi, möminləri bir-birləri ilə qardaş etməsidir. Namaz qılan şəxs onunla bir cərgədə duran, əqidəsi, məqsədi təmamilə eyni olan din yoldaşına ehtiramla yanaşır və hər bir işində ona dayaq olmağa çalışır. Allah-taala Qurani-kərimdə buyurur:

فَإِن تَابُواْ وَأَقَامُواْ الصَّلاَةَ

وَآتَوُاْ الزَّكَاةَ فَإِخْوَانُكُمْ فِي الدِّينِ وَنُفَصِّلُ الآيَاتِ لِقَوْمٍ يَعْلَمُونَ

**"Əgər onlar tövbə edib, namaz qılsalar, zəkat versələr sizin dini qardaşlarınızdırlar"[2].**

Demək olar , yalnız bu ayəyə əməl etmək müsəlman cəmiyyətinin bütün problemlərini həll etmiş olar. Belə ki,

---

1 "Ənam", 92.

2 "Tövbə",11.

ümmətdə olan mömin varlılar kasıblara, alimlər avamlara, həkimlər xəstələrə və s. sahələrdə çalışanlar vəzifələrinə uyğun olaraq xalqa, camaata xidmət etməyə başlasalar şübhəsiz ki, heç bir islam dini ardıcılı sıxıntıda yaşamayacaqdır.

Başqa bir ayədə Allah möminlərin bir olmasını, müxtəlif yerlərə parçalanmamalarını buyurur:

وَاعْتَصِمُواْ بِحَبْلِ اللّهِ جَمِيعًا وَلاَ تَفَرَّقُواْ وَاذْكُرُواْ نِعْمَةَ اللّهِ عَلَيْكُمْ إِذْ كُنتُمْ أَعْدَاءً فَأَلَّفَ بَيْنَ قُلُوبِكُمْ فَأَصْبَحْتُم بِنِعْمَتِهِ إِخْوَانًا وَكُنتُمْ عَلَىَ شَفَا حُفْرَةٍ مِّنَ النَّارِ فَأَنقَذَكُم مِّنْهَا كَذَلِكَ يُبَيِّنُ اللّهُ لَكُمْ آيَاتِهِ لَعَلَّكُمْ تَهْتَدُونَ

**“Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O sizin qəlblərinizi (islam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönələsiniz!”**[1]

Allah-taaala “Hucurat” surəsinin 10-cu ayəsində möminlərin dində qardaş olmasını və onların qarşılaşdıqları hər bir çətinlik və anlaşılmazlığı mehribanlıqla həll etməli olduqlarını bəyan edir:

إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ فَأَصْلِحُوا بَيْنَ أَخَوَيْكُمْ وَاتَّقُوا اللَّهَ لَعَلَّكُمْ تُرْحَمُونَ

**“Həqiqətən, möminlər (dində) qardaşdırlar. Buna görə də (aralarında bir mübahisə düşsə) iki qardaşınızın arasını düzəldin**

[1] “Ali-İmran”,103.

**və Allahdan qorxun ki, bəlkə, (əvvəlki günahlarınız bağışlanaraq) rəhm olunasınız!”**[1]

## Namaz heç bir halda tərk edilməyən ibadətdir

İslam dinində vacib əməllər müəyyən şərait çərçivəsində insanlara vacib olur. Məsələn, Həcc ziyarəti bu səfərə getmək üçün kifayət qədər pulu və s. imkanları olan zaman vacib edilir və yoxsul təbəqənin nümayəndələrinə borc alıb bu dini vəzifəni yerinə yetirmək əmr edilməmişdir. Yaxud, oruc tutmaq istəyən şəxs sağlam olmalıdır. Oruc tutmaq hər hansı bir şəxsin sağlamlığına zərər yetirə biləcəyi halda ona bu işi görmək vacib deyil, əksinə bunu gördükdə haram etmiş olur və s. Lakin namaz qılmaq bu kimi şərtlərdən müstəsnadır. İstər yoxsul olsun, istərsə də varlı, istər sağlam olsun, istərsə də xəstə namaz qılmaq hər bir müsəlman şəxsə vacibdir. Ayaq üstə dura bilməyən oturaq vəziyyətdə, otura bilməyən uzanaraq bu əməli icra etməlidir. Qurani-kərimdə Allah həzrət İsanın (ə) dilindən belə nəql edir:

**“O, harada oluramsa olum, məni mübarək (həmişə hamıya xeyir verən, dini hökmləri öyrədən) etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu”[2].**

وَجَعَلَنِي مُبَارَكًا أَيْنَ مَا كُنتُ وَأَوْصَانِي بِالصَّلوةِ وَالزَّكَوةِ مَا دُمْتُ حَيًّا

Hətta döyüş meydanlarında belə namaz tərk edilməməlidir. Baxmayaraq ki, təhlükə hiss olunan yerlərdə dörd rükətli namazlar iki rükət qılınır:

---

1 “Hucurat”,10.

2 “Məryəm”,31.

وَإِذَا ضَرَبْتُمْ فِي الأَرْضِ فَلَيْسَ عَلَيْكُمْ جُنَاحٌ أَن تَقْصُرُواْ مِنَ الصَّلوةِ إِنْ خِفْتُمْ أَن يَفْتِنَكُمُ الَّذِينَ كَفَرُواْ إِنَّ الْكَافِرِينَ كَانُواْ لَكُمْ عَدُوًّا مُّبِينًا

**“Səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmaq (dörd rəkətli namazı iki rəkət qılmaq) sizə günah hesab edilməz. Həqiqətən, kafirlər sizinlə açıq düşməndirlər”[1].**

İmam Əli (ə) “Suffeyn” döyüşündə namaz qılmaq istədikdə ona, indi namaz qılmaq vaxtımıdır? – deyə etiraz edildikdə o Həzrət (ə) onlara buyurdu: “Bizim düşmənlə döyüşməyimizdə əsas məqsəd namazın icrası deyilmi?”

Atasından belə tərbiyə alan İmam Hüseyn (ə) Aşıura günü düşmənlə üz-üzə olmasına baxmayaraq, namazını tərk etmədi. İmamın böyük səhabələrindən olan Əbu Səmamə üzünü o Həzrətə (s) tutaraq dedi: “Ey Allah rəsulunun övladı, biz tezliklə əzizlərimizə qovuşarıq. Sizinlə birlikdə daha bir namaz qılmaq istəyirik”. İmam göyə baxım buyurdu:

زكرت الصلوه جعلك الله من المصلين الذاكرين

**“ Bəli, namazın vaxtıdır. Sən namazı yada saldın, Allah səni namaz qılanlardan etsin”**. Sonra o Həzrət (ə) zöhr namazını camaatla qılmağa başladı. Hətta bu irfani ibadət zamanı o Həzrətin (ə) bir neçə səhabəsi düşmən tərəfindən qətlə yetirilərək şəhid edildi[2].

Demək, nəyəsə görə namazı tərk etmək, müxtəlif bəhanələr gətirmək yalnız insanın öz-özünü aldatması deməkdir və bu,

---

[1] “Nisa”,101.

[2] “Fərhəngi-aşura”.

çox böyük fəsadlara səbəb olur. Çünki Allahla əlaqəsini kəsən şəxsı şeytan asanlıqla öz toruna salır. Fəxri Razi təfsir əsərində "Əsr" surəsini izah edərkən yazır: "Bir qadın nalə çəkən halda Peyğəmbərin yanına gəlib dedi: "Ey Resulullah (s), səhabələr getsin, təklikdə sənə sözüm var". Səhabələr getdilər. O qadın Peyğəmbərin (s) yanında oturub dedi: "Ey Allahın rəsulu (s) çox böyük bir günah etmişəm". Peyğəmbər buyurdu: "Allahın rəhməti ondan böyükdür". Günah nə qədər böyük olsa da insanın (Allahın rəhmətindən) məyus olması mənasızdır. Əgər insan sidq ürəklə tövbə etsə, qəlbində günahlarının qorxusundan bir təlatüm yaransa günahları bağışlanacaqdır. İslam dinində çıxılmaz vəziyyət yoxdur. Peyğəmbər buyurdu: "Günahın nədir?" Dedi: "Ey Allahın rəsulu (s) ərli qadın olduğum halda zina etdim, hamilə oldum, uşaq dünyaya gəldi, onu sirkə qabında boğdum və sonra da nəcis sirkəni camaata satdım". Həqiqətən də çox böyük günahdır. Məlum olur ki, Allahın peyğəmbəri (s) çox narahat olmuşdur. Onun hökmünü dedikdən sonra buyurdu: "Xanım, istəyirsənmi sənin bu bəlaya uğramağının səbəbini deyim?" İnsan bəzi vaxtlar elə bir bəlaya düşür ki, ondan qurtulmaq mümkün olmur.

انی ظننت انک ترکت صلوه العصر

" Belə düşünürəm ki, sən namazı tərk etmisən".[1]

Şübhəsiz, Allah, göstərişlərinə əməl etməyib, bəhanə gətirən şəxsləri sevmir və müəyyən etdiyi gündə onları cəzalandıracaqdır.

[1] "Təfsiri-Fəxre Razi", c. 32, səh. 85.

## Namaz qılmaq hamının vəzifəsidir

Bəzi namaz qlmayan, Allahın aəmrlərinə tabe olmayan şəxslər belə düşünürlər ki, namaz və s. dini əməlləri həyata keçirmək yalnız din xadimlərinin borcudur və namaz qılmayanların "qəlblərinin təmizliyi" (?) isə namaz qılıb, digər dini əməlləri icra etmədiyi hallarda belə kifayət edir. İlk olaraq qeyd etmək lazımdır ki, namaz yalnız din xadimlərinə yox əksinə, bütün müsəlmanlara vacib edilmişdir. Çünki, hamı Allahın bəndəsidir və hamının Ona tabe olması və ibadət etməsi vacibdir.

Digər baxımdan, həqiqətən də qəlbləri saf və təmiz olan şəxslər Allaha baş əyir, namaz qılır və dini əmrləri fərəhlə yerinə yetirirlər. İmam Sadiq (ə) İmam Əli ibn Hüseynin (ə) namaz qılması haqqında buyurur:

كان على بن الحسين اذا اقام فى الصلوه كانه ساق شجره لا يتحرك منه

شىء الا ما حركه الريح منه

" İmam Səccad (ə) namaz qılarkən gövdəli bir ağac kimi heç tərpənmirdi. Yalnız külək onun paltarlarını tərpədirdi"[1]. Nəql edirlər ki, Həzrət (ə) o qədər namaz qılır, Allaha səcdə edirdi ki, alnı qabar bağlayırdı. Bu, məsumların qıldığı namazdır. Əgər Peyğəmbər (s) və imam övladı qəlbinin təmizliyinə yox, əksinə namaza bu qədər əhəmiyyət verirsə, digər şəxslər ibadətə daha ox vaxt sərf etməlidirlər.

Heç bir şəxsin qəlbi günah etmək, Allahın fərmanlarına boyun əyməməklə təmiz olmur. Çünki, hər bir günah bir qara

---

[1] "Kafi", c.3, səh. 300.

ləkə kimi insanın qəlbinə həkk olur. Belə olduğu halda, itaətsizlik edən şəxsin qəlbi təmiz yox, qaralmış və daşlaşmış olur.

Böyük övliyalar, ariflər illərlə üzərlərində çalışır, hər bir dini əməli vaxtı-vaxtında yerinə yetirir, əxlaqlarına diqqət yetirirlər ki, qəlbləri dünya bağlılığından ayrılsın və namazın ləzzətini daha da yaxşı şəkildə duya bilsinlər. Amma, bəzilərinin heç nədən qəlblərinin təmizliyini iddia etməsi yalandan başqa bir şey deyil. Bir el məsəlində deyildiyi kimi, qabdan axan su onun içində olanıdır.

Ən təmiz qəlbli, sağlam düşüncəli, gözəl əxlaqlı insanlara - peyğəmbərlərə, məsum imamlara, övliyalara belə namaz qılıb, Allaha ibadət etmək vacib edilmişdir. Allah Quranda peyğəmbərin ailəsinə xitab edərək buyurur:

وَأَقِمْنَ الصَّلوٰةَ وَآتِينَ الزَّكوٰةَ وَأَطِعْنَ اللهَ وَرَسُولَهُ

**"Namaz qılın, zəkat verin, Allaha və Rəsuluna itaət edin"**[1].

Beləliklə, bütün insanlar Allahın əmrlərini icra etməyə səfərbər olmalı və heç bir bəhanə gətirmədən sevimli məbudlarına ibadət etməlidirlər.

## Cümə namazının əhəmiyyəti

Müsəlmanların həftə ərzində bir dəfə toplu şəkildə həyata keçirməli olduqları ibadətlərdən biri olan cümə namazı böyük əhəmiyyətə malikdir. Bu, bir ibadət olmaqla yanaşı, həm də müsəlmanların əzəmət və vəhdətinin bariz nümunəsidir. Qurani-kərimdə Cümə namazı haqqında oxuyuruq:

[1] "Əhzab", 33.

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا نُودِي لِلصَّلوةِ مِن يَوْمِ الْجُمُعَةِ فَاسْعَوْا إِلَى ذِكْرِ اللَّهِ وَذَرُوا الْبَيْعَ ذَلِكُمْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ

**" Ey iman gətirənlər, elə ki cümə namazına çağırılırdınız, Allahı yad etməyə tərəf tələsin və alış- verişi tərk edin"[1].**

Cümə namazı ən azı beş nəfərdən ibarət bir toplu şəklində təşkil edilir. Bu namazın imamı müsəlmanların dini hakimi olmalı və yaxud dini rəhbər tərəfindən bu mənsəbə təyin edilməlidir. Cümə namazında ilk olaraq iki xütbə oxunur. Prinsip etibarilə birinci xütbə moizə əhəmiyyəti daşıyır, ikinci xütbədə isə gündəmdə olan siyasi-ictimai və s. məsələlərdən söz açılır. Bu ibadətin necə böyük əhəmiyyətə malik olmasını bilmək üçün Allah rəsulundan (s) nəql edilən bir neçə hədisi nəzərinizə çatdırırıq. O Həzrət (s) buyurur: "الجمعه حج المساكين"

**"Cümə namazı kasıbların həccidir"[2].**

Başqa rəvayətlərdə isə İslam peyğəmbəri (s) cümə namazını günahların bağışlanmasına səbəb hesab edir. Bəzi vaxtlar möminlər Cümə namazını çox da ciddi olmayan işlərin arxasınca getməklə tərk edir və bu ilahi-siaysi ibadətə olduqca az əhəmiyyət verirlər. Qurani-kərim belə şəxslər haqqında buyurur:

وَإِذَا رَأَوْا تِجَارَةً أَوْ لَهْوًا انفَضُّوا إِلَيْهَا وَتَرَكُوكَ قَائِمًا قُلْ مَا عِندَ اللَّهِ خَيْرٌ مِّنَ اللَّهْوِ وَمِنَ التِّجَارَةِ وَاللَّهُ خَيْرُ الرَّازِقِينَ

---

1 "Cümə", 9.

2 "Biharul-ənvar", c. 89, səh. 199.

**“Onlar (möminlər) bir alış-veriş, yaxud bir əyləncə gördükləri zaman səni ayaq üstə (minbərdə xütbə oxuduğun halda) qoyub ona tərəf cumdular. (Ya Peyğəmbər!) De: "Allah dərgahında olan savab əyləncədən də, ticarətdən də xeyirlidir. Allah ruzi verənlərin ən yaxşısıdır!"[1].**

“Nur əs-səqəleyn” təfsir əsərində bu ayənin izahında oxuyuruq: “Yoxsulluq Mədinəni bürümüşdü. Aclıq insanlara möhkəm təzyiq göstərirdi. Təbii ki, belə bir şəraitdə əgər bir ərzaq karvanı şəhərə daxil olsa hamı ona tərəf qaçıb, bir şey almaq istəyər.

Cümə günü Mədinə əhli məscidə toplaşmış və İslam peyğəmbəri (s) Cümə namazının xütbələrini oxuyurdu. Bu zaman xəbər yaydılar ki, Mədinəyə ərzaq karvanı gəlmişdir. Müsəlmanlar un, arpa almaq üçün məscidi tərk etdilər. Yalnız Peyğəmbərlə (s) səkkiz və ya qırx nəfər qaldılar. Bunu görən Peyğəmbər buyurdu: “And olsun əcəlim ixtiyarında olan Allaha, əgər siz də bu məscdən gedib, burda heç kəs qalmasaydı atəş (Allahın əzabı) bütün bu biyabanı bürüyər və sizi həlak edərdi[2].

## İslamdan qabaqkı dinlərdə namaz

Namaz yalnız İslam dinində müsəlmanlara vacib edilməmişdir. Bütün keçmiş dinlərdə Allaha sitayiş, namaz qılmaq sabit bir dini hökm kimi din ardıcıllarına vacib edilmişdir. Bu, namaz qılmağın insanlarda fitri olmasını göstərir. Bir şeyin fitri olması onun hər bir zamanda və bütün insanlarda təzahür etməsidir. Ustad Mürtəza Mutəhhəri (r) fitri olana tərif verərkən

---

[1] “Cümə”, 11.

[2] “Nur əs-səqəleyn”, 329/5.

yazır: “Fitri olan, bütün insanalrın qəbul etdiyi və onda heç bir şübhə olmayan aydın həqiqətlər mənasındadır”[1]. İnsanların fitrət etibarı ilə Allahpərəstliyə, duaya, namaza meylli olmasını bir çox Quran ayələri və rəvayətlər də təsdiq edir.

Qurani-kərimdə hikmət sahibi kimi tanınan Loğman (ə) oğlunu əxlaq normalarına dəvət etməklə yanaşı digər dini əmrləri, xüsusi ilə namaz qılmağı ona tövsiyə edir. Belə ki, o, ilk olaraq oğlunu Allaha şərik qoşmamağı tapşırır və ona bunun böyük bir zülm olduğunu xatırladır:

وَإِذْ قَالَ لُقْمَانُ لِابْنِهِ وَهُوَ يَعِظُهُ يَا بُنَيَّ لَا تُشْرِكْ بِاللَّهِ إِنَّ الشِّرْكَ لَظُلْمٌ عَظِيمٌ

**“(Ya Rəsulum!) Yadında olsun ki, bir zaman Loğman öz oğluna nəsihət edərək belə demişdi: "Oğlum! Allaha şərik qoşma. Doğrudan da, Allaha şərik qoşmaq böyük zülmdür! (Ağır günahdır!)”**[2]

Sonra böyük həkim nəsihətinə davam edərək, hətta xardal dənəsi qədər istər yaxşı, istərsə də pis əməlin aradan getməməsini və müəyyən gündə ortaya çıxacağını buyurur:

يَا بُنَيَّ إِنَّهَا إِن تَكُ مِثْقَالَ حَبَّةٍ مِّنْ خَرْدَلٍ فَتَكُن فِي صَخْرَةٍ أَوْ فِي السَّمَاوَاتِ أَوْ فِي الْأَرْضِ يَأْتِ بِهَا اللَّهُ إِنَّ اللَّهَ لَطِيفٌ خَبِيرٌ

**“(Loğman öyüd-nəsihətinə davam edərək) dedi: "Oğlum, (dünyada gördüyün hər hansı yaxşı, yaxud pis iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın (daşın) içində, yaxud göylərdə və ya yerin təkində olsa da, Allah onu (qiyamət günü) ortaya gətirər (onun haqq-hesabını çəkər). Həqiqətən, Allah**

---

[1] “Usuli-fəlsəfə və raveşi-realizm”, c.1, səh. 26.

[2] “Loğman”, 13.

**lətifdir (bütün incə işləri biləndir; lütfkardır), (hər şeydən) xəbərdardır!”**[1]

Bütün bunları xatırlatdıqdan sonra həzrət Loğman oğlunu namaza dəvət edir və digər zəruri işlərin icrasını ona tövsiyə edir:

يَا بُنَيَّ أَقِمِ الصَّلَاةَ وَأْمُرْ بِالْمَعْرُوفِ وَانْهَ عَنِ الْمُنكَرِ وَاصْبِرْ عَلَى مَا أَصَابَكَ إِنَّ ذَلِكَ مِنْ عَزْمِ الْأُمُورِ

**“Oğlum! Namaz qıl, (insanlara) yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. (Bu yolda) sənə üz verəcək müsibətlərə döz. Həqiqətən, bu (dediklərim) vacib əməllərdəndir!”**[2]

Allah-taala başqa bir surədə həzrət İsmayılı (ə) xatırladır və ailəsini namaza dəvət etməklə onun razılığını qazanmasını buyurur:

وَكَانَ رَسُولًا نَّبِيًّا . وَكَانَ يَأْمُرُ أَهْلَهُ بِالصَّلوةِ وَالزَّكوةِ وَكَانَ عِندَ رَبِّهِ مَرْضِيًّا

وَاذْكُرْ فِي الْكِتَابِ إِسْمَاعِيلَ إِنَّهُ كَانَ صَادِقَ الْوَعْدِ

**“(Ya Rəsulum!) Kitabda (Quranda) İsmayılı da yada sal! O, öz vədinə sadiq və (Bizim tərəfimizdən öz ümmətinə göndərilmiş) bir elçi, bir peyğəmbər idi.**

**O öz ümmətinə namaz qılmağı, zəkat verməyi əmr edirdi. O, Rəbbinin rizasını qazanmışdı. (İsmayılın əməli Allah dərgahında bəyənilmişdi)”** [3].

Göründüyü kimi, həzrət İsmayılın dininə sadiq qalmasının nişanələrindən biri də ümmətini namaza dəvət etməsi idi.

---

[1] “Loğman”, 16.

[2] “Loğman”, 17.

[3] “Məryəm”, 54-55.

Uca Allahın Bəni-İsraillə bağladığı əhd-peymanlardan biri də onların Alladan başqasına pərəstiş etməməsi və həmişə namaz qılmaları idi. Bu haqda Quranda oxuyuruq:

وَإِذْ أَخَذْنَا مِيثَاقَ بَنِي إِسْرَائِيلَ... مِّنكُمْ وَأَقِيمُواْ الصَّلوةَ

**"Xatırla o zamanı ki, Bəni-İsraillə Allahdan başqasına pərəstiş etməsinlər, ...Namaz qılsınlar...deyə, əhd bağladıq"[1].**

Həzrət Şüeyb peyğəmbərin (ə) dinində də namaz qılmaq vacib edilmişdir. "Hud" surəsində Şüeyb peyğəmbər (ə) öz qövmünə Allaha ibadət etməyi tövsiyə edərərək buyurur:

وَإِلَى مَدْيَنَ أَخَاهُمْ شُعَيْبًا قَالَ يَا قَوْمِ اعْبُدُواْ اللّهَ مَا لَكُم مِّنْ إِلَهٍ غَيْرُهُ

**"Mədyən əhlinə də qardaşları Şüeybi (peyğəmbər göndərdik). O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur"[2].**

Uyğun sürənin 87-ci ayəsində O həzrətin (ə) qövmü kinayə ilə, "bizi dədə-baba dinimizdən ayırmanıza qıldığınız namazmı əmr edir?" - deyə sual edirlər:

قَالُواْ يَا شُعَيْبُ أَصَلاَتُكَ تَأْمُرُكَ أَن نَّتْرُكَ مَا يَعْبُدُ آبَاؤُنَا أَوْ أَن نَّفْعَلَ فِي أَمْوَالِنَا مَا نَشَاءُ إِنَّكَ لَأَنتَ الْحَلِيمُ الرَّشِيدُ

**"Onlar (istehza ilə) dedilər: "Ey Şüeyb! Atalarımızın tapındığı bütləri tərk etməyimizi, mallarımızla istədiyimiz kimi hərəkət etməkdən vaz keçməyimizi sənə namazınmı (dininmi) əmr edir? Sən doğrudan da, həlim xasiyyətlisən, çox ağıllısan!" [3]**

---

[1] "Bəqərə", 83.

[2] "Hud", 84.

[3] "Hud", 87.

“Ali-imran” surəsində həzrət Zəkəriyyadan (ə) söz düşdükdə onun mehrabda Allahdan pak bir övlad istəməsi və eləcə namaz halında ona Yəhyanın (ə) təvəllüdü ilə bağlı müjdə verilməsi bəyan edilir:

فَتَقَبَّلَهَا رَبُّهَا بِقَبُولٍ حَسَنٍ وَأَنبَتَهَا نَبَاتًا حَسَنًا وَكَفَّلَهَا زَكَرِيَّا كُلَّمَا دَخَلَ عَلَيْهَا زَكَرِيَّا
الْمِحْرَابَ وَجَدَ عِندَهَا رِزْقاً قَالَ يَا مَرْيَمُ أَنَّى لَكِ هَذَا قَالَتْ هُوَ مِنْ عِندِ اللهِ إِنَّ اللهَ يَرْزُقُ مَن
يَشَاءُ بِغَيْرِ حِسَابٍ هُنَالِكَ دَعَا زَكَرِيَّا رَبَّهُ قَالَ رَبِّ هَبْ لِي مِن لَّدُنْكَ ذُرِّيَّةً طَيِّبَةً إِنَّكَ سَمِيعُ
الدُّعَاءِ فَنَادَتْهُ الْمَلآئِكَةُ وَهُوَ قَائِمٌ يُصَلِّي فِي الْمِحْرَابِ أَنَّ اللهَ يُبَشِّرُكَ بِيَحْيَى مُصَدِّقًا بِكَلِمَةٍ مِّنَ
اللهِ وَسَيِّدًا وَحَصُورًا وَنَبِيًّا مِّنَ الصَّالِحِينَ قَالَ رَبِّ أَنَّى يَكُونُ لِي غُلاَمٌ وَقَدْ بَلَغَنِيَ الْكِبَرُ
وَامْرَأَتِي عَاقِرٌ قَالَ كَذَلِكَ اللهُ يَفْعَلُ مَا يَشَاءُ

**“Belə olduqda, Rəbbi (Məryəmi) yaxşı qəbul etdi, onu gözəl bir fidan kimi böyütdü və Zəkəriyyaya tapşırdı. Zəkəriyya hər dəfə (Məryəmin) ibadət etdiyi mehraba girdikdə, onun yanında bir ruzi olduğunu görərdi. ( Zəkəriyya: ) "Ya Məryəm, bunlar sənin üçün haradandır?" - dedikdə, o: "Allah tərəfindəndir!" - deyə cavab verərdi. Həqiqətən, Allah istədiyi şəxsə hədsiz ruzi verər!**

**(O zaman) Zəkəriyya Rəbbinə dua edərək dedi: "Ey Rəbbim! Mənə də Öz tərəfindən pak bir övlad bəxş et! Sən, həqiqətən, duaları eşidənsən!"**

**(Zəkəriyya) mehrabda (ibadətgahda) ayaq üstə durub namaz qılarkən mələklər ona müraciət edib dedilər: "Allah sənə Özü tərəfindən gələn kəlməni (İsanı) təsdiq edən, (tayfasını) ağa, nəfsinə hakim və əməlisalehlər zümrəsindən bir peyğəmbər olacaq Yəhyanın (dünyaya gələcəyi) xəbərini müjdə verir".**

**(Zəkəriyya: ) "Ey Rəbbim, üzərimə qocalıq çökdüyü və zövcəm qısır (doğmayan) olduğu halda, mənim necə oğlum ola bilər? " - söylədi. (Allah isə: ) " (Bəli) dediyin kimidir, (lakin) Allah nə istəsə, onu da edər", - deyə buyurdu"**[1].

"Məryəm" surəsinin 31-ci ayəsində isə həzrət İsanın(ə) dilindən nəql edilir:

وَجَعَلَنِي مُبَارَكًا أَيْنَ مَا كُنتُ وَأَوْصَانِي بِالصَّلوةِ وَالزَّكَوةِ مَا دُمْتُ حَيًّا

**"O, harada oluramsa olum, məni mübarək (həmişə hamıya xeyir verən, dini hökmləri öyrədən) etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu"[2].**

Yəhudi və xristianların namazı duaya çox yaxındır. Yəhudilər günün uçüncü, altıncı, doqquzuncu və gecənin ilk və axır saatlarında, həmçinin yemək yedikləri zaman bəzi dualar edirlər. Yəhudilərin namazında rüku yoxdur. Lakin, Qurani-kərimdə Məryəmə belə xitab (müraciət) edilməsi bəyan edilir:

يَا مَرْيَمُ اقْنُتِي لِرَبِّكِ وَاسْجُدِي وَارْكَعِي مَعَ الرَّاكِعِينَ

**"Ya Məryəm, öz Rəbbinə itaət et, səcdəyə qapan və rüku edənlərlə birlikdə rüku et! (Namaz qılanlarla bir yerdə namaz qıl!)"[3]**

Məsihilər altıncı günlər cəm halında kilsədə dua oxuyurlar. Onlar İsanın (ə) həvarilərlə[4] qıldığı son namazı ən yaxşı dua hesab edirlər. Bu dua və ya namaz Allahı təqdir etməkdən ibarətdir. Sonra onlar Allahdan hacətlərini tələb edir ( gündəlik

---

[1] "Ali-imran", 37-40.

[2] "Məryəm", 31.

[3] "Ali-imran", 43.

[4] Həzrət İsanın (ə) on iki şagirdi.

çörəyin istənilməsi bu hacətlərdən biridir) və yenidən Allahı zikr edirlər.

Hətta cahilillik dövründə də ərəblər namaz qılırdılar. Belə ki, onlar lüt halda Kəbənin qabağına gəlib, fit və əl çalmaqla Allaha ibadət edirdilər. Ehtimal edilir ki, həzrət İbrahimin (ə) zamanında icra edilən ibadət tərzi zaman ötdükcə təhrif edilmiş və bu hala gəlmişdir. Bəlkə elə bu təhrifə görədir ki, cahil ərəblərin namazları Quranın danlağına tuş gəlmişdir:

وَمَا كَانَ صَلاَتُهُمْ عِندَ الْبَيْتِ إِلاَّ مُكَاء وَتَصْدِيَةً فَذُوقُواْ الْعَذَابَ بِمَا كُنتُمْ تَكْفُرُونَ

**"Onların Beytullahın (Kəbənin) yanındakı namazı (duaları) fit verib əl çalmaqdan başqa bir şey deyildir. (Ey müşriklər!) Etdiyiniz küfrə görə indi dadın əzabı!"**[1]

## Əsl namaz qılan şəxslər

Qurani-kərimin buyuruqlarına əsasən hər bir namaz qılan şəxs əsl namaz qılma səadətinə nail olmur. Əsl namaz qılan şəxslər bir çox əxlaqi dəyərləri özündə cəmləşdirən insanlardır. Belə olan halda, namazların Allah dərgahında qəbul olmasına səbəb olan, möminin həyat tərzini əvəz edən bu dəyərlərlə tanış olmaq zəruridir:

## Təqva əhli namaz qılanlardır

Qurani-kərimdə dəfələrlə xatırlanan "təqva" İslam dinini olduğu kimi yaşamağa deyilir. Demək, təqvalı şəxs Allahın buyuruqlarına tabeçilik göstərir, Onun əmr etdiklərinə əməl edir

[1] "Ənfal", 35.

və qadağalarından çəkinir. İmam Sadiqdən (ə) təqva haqqında soruşulduqda buyurur:

ان لا يفقدك حيث امرك و لا يراك حيث نهاك

“Təqva odur ki, Allah-taala səni, əmr etdiyi yerlərdə görsün, qadağan etdiyi yerlərdə isə görməsin”[1].

Möminlərin əmiri həzrət Əli (ə) öz vəsiyyətində oğlu İmam Həsənə (ə) təqvalı olmağı və qəlbini Allahın zikri ilə abad etməyi vasiyyət edir:

فاني اوصيك بتقوي الله – اي بني- ولزوم امره و عماره قلبک بذکره و الا عتصام بحبله و

ای سبب اوسق من سبب بینک و بین الله ان انت اخذت به

“Ey oğlum, sənə ilahi təqvanı və Allahın əmrlərini yerinə yetirməkdə iltizamlı olmağı, öz qəlbini Allahın zikri ilə abad etməyi, (eşq, məhəbbət ocağı olan qəlbini Allahın eşqinin nuru ilə işiqlandırmağı), ona bəndəlik etməyi və sarsılmaz məhəbbət ipinə sarılmağı tövsiyə edirəm. Səninlə Pərvərdigarın arasındakı ipdən də möhkəm bir səbəb ola bilərmi ki, sən ondan yapışmısan?!”[2]

Allah yanında ən üstün şəxslər məqamından, cinsiyyətindən asılı olmayaraq təqvalılardır:

يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُم مِّن ذَكَرٍ وَأُنثَى وَجَعَلْنَاكُمْ رشُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا إِنَّ أَكْرَمَكُم عِندَ

اللهِّ أَتْقَاكُمْ إِنَّ اللهَّ عَلِيمٌ خَبِيرٌ

“Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi

---

1 “Səfinə əl-bihar”, c. 2, səh. 678.

2 “Nəhcul-bəlağə”, 31-ci məktub.

biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır”[1].

Bütün yaxşı əməllərin qəbul olunmasında təqva ən mühüm şərtlərdən biri sayılır. Qurani-kərimdə Allah bunu xatırladaraq buyurur:

وَاتْلُ عَلَيْهِمْ نَبَأَ ابْنَيْ آدَمَ بِالْحَقِّ إِذْ قَرَّبَا قُرْبَانًا فَتُقُبِّلَ مِن أَحَدِهِمَا وَلَمْ يُتَقَبَّلْ مِنَ الآخَرِ قَالَ لَأَقْتُلَنَّكَ قَالَ إِنَّمَا يَتَقَبَّلُ اللّهُ مِنَ الْمُتَّقِينَ

“(Ya Rəsulum!) Onlara Adəmin iki oğlunun əhvalatını olduğu kimi söylə. Onlar qurban gətirdikləri zaman birinin qurbanı qəbul edilmiş, digərininki isə qəbul olunmamışdı. (Qurbanı qəbul olunmayan Qabil qardaşı Habilə) demişdi: "Səni mütləq öldürəcəyəm! (Habil ona) belə cavab vermişdi: "Allah yalnız müttəqilərdən (qurban) qəbul edər!”[2]

Altıncı imam Cəfər ibn Məhəmməd belə buyurur: “Nəfsani istəklərinə tabe olub, yanlış fikirlərlə özünü aldadan insan, bir dəstənin onun başına toplaşaraq ehtiram göstərdiyi şəxsə bənzəyir. Mən bu şəxs haqqında eşitdikdən sonra onun nə qədər elmli olduğunu bilmək üçün onu görmək istədim. Bir gün bir məhəllədə camaatın onun başına yığışdığını gördüm. Onların arxasında dayandım və məni tanımasınlar deyə üzümün bir hissəsini bağladım. O, başına toplaşanları dedikləri ilə aldadırdı. Toplantı qurtardıqdan sonra o, yolunu döndərib camaatdan ayrıldı. Mən də onun arxasınca getdim. Az keçmədi

---

1 “Hucurat”, 13.

2 “Maidə”, 27.

ki, bir cörək satılan dükana çatdı. Onu aldadıb iki çörək oğurladı. Sonra nar dükanına gedib orda da iki nar oğurladı. Təəccüb etdim. Öz-özümə, bəlkə əvvəlcədən bunların pulunu ödəyib – deyə fikirləşdim. Yenə də onun arxasınca getdim və o, bir xəstənin yanına gəlib çörəklərlə iki ədəd narı onun yanında qoyub getdi. Səhrada onu daxmasının yanında dayanan gördükdə yanına gedib dedim: "Ey Allahın bəndəsi, mən sənin haqqında bəzi şeyləri eşitdiyimdən səni görmək istəyirdim. Lakin, sənin bəzi əməllərini görməyim məni təəccübləndirdi". Dedi: "Səni təəcübləndirən nədir?" Dedim: "Çörəkçidən iki çörək, narsatandan isə iki nar oğurladın". Mənim cavabımı verməmişdən qabaq soruşdu: "Sən kimsən?" Dedim: "Adəmin (ə) övladlarından, Məhəmmədin (s) ümmətindən olan bir şəxs". Dedi: "Mənə de, sən kimsən?" Dedim: "Allah rəsulunun (ə) əhli-beytindən (ə) biri". Dedi: "Haralısan?" Dedim: "Mədinədən". Dedi: "Bəlkə Məhəmməd ibn Cəfərsən?" Dedim: "Bəli" Dedi: "Nəcabətinin şərəfli olması sənin Allahın kitabına olan cəhalətinin qarşısını almasına nə faydası olmuşdur?" Dedim: "Mənim Allahın kitabına qarşı olan chalətim nədir?" Dedi: "Qurani-kərimdə deyildiyinə görə, bir yaxşı iş görən kimsə on savab qazanır, bir günah edəninisə yalnız bir günah qədər cəzası var. Mən iki çörək və iki nar oğurladım. Deməк mən dörd günah etdim. Lakin onların hamısını ehsan etdim və nəticədə otuz altı savabım var". Ona dedim: "Sən Allahın kitabından xəbərsizsən. Quranda oxumamısanmı, Allah yalnız təqva əhlindən xeyir işləri qəbul edir? Sən iki çörək və iki nar oğurlamaqla dörd günah və onları sahibinin icazəsi olmadan

ayrılarına verməklə savab yox, əksinə yenidən dörd günah qazandın. Nəticədə sən səkkiz günah iş görmüsən"[1].

Təqva əhlinin yüksək keyfiyyətlərindən biri də namaz qılmalarıdır. Allah, təqva əhli olan namaz qılanları belə xatırladır:

الَّذِينَ يُؤْمِنُونَ بِالْغَيْبِ وَيُقِيمُونَ الصَّلوٰةَ

**"Onlar (təqvalılar) qeybə iman gətirir və namaz qılırlar"[2].**

Biz də təqvalı olub, Allahın əmrlərini yerinə yetirməkdə öncül və namaz qılmağı özümüzün tərk edilməz əməlimizə çevirək.

## Allah yolunda ehsan edən namaz qılnalar

İslam dinində başqalarına edilən hər hansı bir yaxşılığa ehsan deyilir. Bu gözəl əməl həm Qurani-kərimin, həm də məsumların (ə) buyuruqlarında təqdir edilmişdir. Belə ki, Allah könül xoşluğu ilə digərlərinə borc verənlərə çox böyük mükafat verəcəyini bildirir:

إِنَّ الْمُصَّدِّقِينَ وَالْمُصَّدِّقَاتِ وَأَقْرَضُوا اللَّهَ قَرْضًا حَسَنًا يُضَاعَفُ لَهُمْ وَلَهُمْ أَجْرٌ كَرِيمٌ

"Şübhəsiz ki, sədəqə verən kişi və qadınların, Allah yolunda gözəl (könül xoşluğu ilə) borc verənlərin (əməllərinin savabı) qat-qat artırılacaqdır. Onları həm də cox qiymətli bir mükafat (Cənnət) gözləyir!"[3]

Ədalət sahibi olan Allah şübhəsiz ki, hər bir yaxşılığı yaxşılıqla cavablandırandır. "Ər-Rəhman" surəsində isə bu haqda oxuyururq:

---

[1] "Vəsail əş-şiə", c. .9, səh. 468.

[2] "Bəqərə", 3.

[3] "Hədid", 18.

هَلْ جَزَاءُ الْإِحْسَانِ إِلَّا الْإِحْسَانُ

**"Yaxşılığın əvəzi ancaq yaxşılıqdır!"**[1]

Həmçinin, ehsan etməyin dəyər və mahiyyəti haqqında isə İslam peyğəmbəri (s) buyurur:

**"Qohumlarının yanına canı və malı ilə yaxşılıq etmək üçün gedənlərə yüz şəhid məqamı və hər qədəminə isə qırx savab verilir"**[2]

Qurani-kərimdə yaxşı işlər görən şəxslərin ən üstün cəhətlərindən biri də onların namaz qılmalarıdır. Loğman surəsində oxuyuruq:

هُدًى وَرَحْمَةً لِّلْمُحْسِنِينَ. الَّذِينَ يُقِيمُونَ الصَّلوةَ وَيُؤْتُونَ الزَّكَوةَ

وَهُم بِالْآخِرَةِ هُمْ يُوقِنُونَ

**"(O Quran) yaxşı əməllər edənlərə bir hidayət (doğru yolu göstərən rəhbər) və rəhmətdir. O kəslər ki, namaz qılar, zəkat verər və axirətə tam yəqinliklə inanarlar"[3].**

Digər əməllərinin, ehsanlarının qəbul edilməsini istəyən şəxslər namaza böyük əhəmiyyət verməlidirlər. Bu haqda İmam Baqir (ə) buyurur:

"اول ما يحاسب به العبد الصلاه فان قبلت قبل ما سواها"

**"Qiyamət günü bəndədən ilk soruşulan əməl namazdır, əgər namaz qəbul olunubsa, sair əməllər də qəbul olunacaqdır. Əks halda sair əməllər ona heç bir fayda verməyəcəkdir"[4].**

---

1 "Ərrəhman", 60.

2 "Biharul-ənvar", c. 74, səh. 89.

3 "loğman", 3-4.

4 "Bihar əl-ənvar", c. 7, səh. 267.

## Namaz təvazökarlıq nişanəsidir

Əsl bəndəlik təzahürü təvazökarlıqdır. Təvazökarlıq özünü digərlərindən üstün tutmamaq, onlara ehtiram etmək və təkəbbür kimi rəzil əxlaqi keyfiyyətlərdən uzaq olmaqdır. Həzrət Əli (ə) təvazökar olmağı ən böyük ibadət hesab edərək buyurur:

" عليك با لتواضع فانه من اعظم العباده "

**"Sizi təvazökar olmağa dəvət edirərm. Çünki, təvazö ən böyük ibadətdir"[1].**

Ən böyük təvazökarlıq isə Allah qarşısında edilməlidir. O Allah ki, bəndənin hər bir şeyi onun tərəfindəndir. Bəndənin Allah qarşısında itaətsizlik göstərib, əmrlərinə etinasız yanaşması isə təvazökarlığın əksidir. Təvazökar olmağın ilk nişanələrindən biri də Namaz qılmaqdır. Qurani-kərimdə bu əxlaqi sərvətin əlamətləri belə xatırlanır:

الَّذِينَ إِذَا ذُكِرَ اللَّهُ وَجِلَتْ قُلُوبُهُمْ وَالصَّابِرِينَ عَلَىٰ مَا أَصَابَهُمْ وَالْمُقِيمِي الصَّلَوٰةِ

وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ

"Onlar o kəslərdirlər ki, Allahın adı çəkiləndə qəlbləri (qorxudan) titrəyir, hər bir müsibətə səbr edirlər, namaz qılırlar və onlara verdiyimiz ruzidən ehsan edirlər"[2].

"Fiqh ər-Rza" kitabından nəql edilir ki, namazı yuxulu, tənbəl, tələsik halında yox, mətinlik və vüqarla qılmaq lazımdır. Namazda xüşu və təvazö halında ol. Namazda həmişə ümid və

---

[1] "Kafi", c. 2, səh. 123.

[2] "Həcc", 35.

qorxu arasında qal. Allahın hüzurunda elə namaz qıl ki, sanki, günahkar bir şəxs tövbə edib bağışlanmasını diləyir. Sağa-sola boylanma. Elə təsəvvür et ki, sən Allahı görürsən, ən azı sən Onu görməsən də O, səni görürr[1].

Səid ibn Cübeyr deyir: "Qırx il namaz qıldım, lakin namaz halında sağ və solumda dayananları tanımadım. Çünki, İbn Abbasın belə buyurduğunu eşitmişdim: "Namaz halında təbazö etmək odur ki, namaz qılan şəxs sağ-solunda dayananları tanımasın (diqqəti yalnız namazda olsun)[2].

İmam Sadiq (ə) قوموا الله قانتين (Allaha itaət halında namaz

qılın) ayəsinin təfsir edərəkən buyurur: "Yəni təvazökarlıqla namaz qılın"[3].

## İman sahibləri namaz qılanlardır

İmam Sadiqdən (ə) iman haqqında soruşulduqda buyurdu:

الايمان ان يطاع الله فلا يعصى

"İman, Allahın əmrlərinə tabe olub, göstərişlərinə qarşı çıxmamaqdır"[4].

Başqa bir rəvayətdə o Həzrətdən (ə) İslamın nə olduğu haqqında sual edildikdə cavab verir:

فقال دين الله اسمه الاسلام و هو دين الله قبل ان تكونوا حيث كنتم و بعد ان تكونوافمن

اقر بدين الله فهو مسلم و من عمل بما امر الله عز و جل به فهو مومن

---

[1] "Adabe-səlat", səh. 151.

[2] "Əsrare-səlat və muhemmatuha", səh. 156.

[3] "Təfsiri-nümunə", c. 2, səh. 148.

[4] "Kafi", c. .2, səh. 33.

“Allahın dininin adı İslamdır. Əgər bir şəxs bu dində olduğunu iqrar etsə, müsəlman və bu dinin göstərişlərinə əməl etdikdə isə mömin sayılır”[1].

Allah taala Qurani kərimdə imanla islam arasında böyük fərqin olmasını bəyan edir:

قَالَتِ الْأَعْرَابُ آمَنَّا قُل لَّمْ تُؤْمِنُوا وَلَكِن قُولُوا أَسْلَمْنَا وَلَمَّا يَدْخُلِ الْإِيمَانُ فِي قُلُوبِكُمْ وَإِن تُطِيعُوا اللَّهَ وَرَسُولَهُ لَا يَلِتْكُم مِّنْ أَعْمَالِكُمْ شَيْئًا إِنَّ اللَّهَ غَفُورٌ رَّحِيمٌ

**“(Qənimət əldə etmək iştahası ilə islama daxil olan) bədəvi ərəblər: "Biz iman gətirdik!" - dedilər. (Ya Peyğəmbər! Onlara) de: "Siz (qəlbən) iman gətirmədiniz! Ancaq: "Biz islamı (müəyyən şəxsi məqsəd, mənfəət naminə) qəbul etdik!" - deyin. Hələ iman sizin qəlblərinizə daxil olmamışdır (çünki iman əməllə etiqadın vəhdəti, islamı qəbul etmək isə yalnız zahiri əməl deməkdir). Əgər Allaha və Peyğəmbərinə itaət etsəniz, O sizin əməllərinizdən heç bir şey əskiltməz (mükafatınızı layiqincə verər). Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!”[2].**

Yuxarıda qeyd edilən ayədən məlum olur ki, dildə islamı qəbul etdikdən sonra əməl etibari ilə də müsəlmanlığı isbat etmək lazımdır. Gərək bütün bunlarla yanaşı iman gətirdiyini iqrar etdiyin dinə saf niyyətlə tapınıb, onun bütün göstərişlərinə əməl edələn. Belə olan halda insan mömin adına layiq görülür. Allahın göstərişlərindən biri də namaz qılmaqdır. Bu məsələyə toxunan Quran ayəsinə diqqət edək:

وَالَّذِينَ اسْتَجَابُوا لِرَبِّهِمْ وَأَقَامُوا الصَّلَاةَ وَأَمْرُهُمْ شُورَى بَيْنَهُمْ وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ

---

[1] “Kafi”, c.2, səh. 38.

[2] “Hucurat”, 14.

**"O kəslər üçün ki, Rəbbinin dəvətini qəbul edər (iman gətirər), namaz qılar, işlərini öz aralarında məsləhət-məşvərətlə görər, onlara verdiyimiz ruzidən (Allah yolunda) sərf edərlər"[1].**

## Allah övliyaları namazı unutmurlar

Gündəlik həyatımızda müxtəlif işlərlə məşğul olur, özümüzün, məsuliyyətini daşıdığımız başqa şəxslərin məişət tələbatını təmin etməyə çalışırıq. Bütün bunlar yaşamaq zərurətlərindən biridir və İslam dini də buna böyük dəyər verir. Belə ki, Rəsuli-əkrəm (s) halal qazanc əldə etməyi ibadətlərin ən üstün dərəcəlisi sayaraq buyurur:

العباده سبعون جزءا افضلها طلب الحلال

**"İbadət yetmiş qismdir. Ən üstünü halal qazancdır"[2].**

Ənəs ibn Malik rəvayət edir: "Allahın rəsulu (s) Təbuk döyüşündən qayıdarkən Səd Ənsari o Həzrəti (s) qarşılamağa getdi. Peyğəmbər(s) onunla qucaqlaşıb görüşdükdən sonra soruşdu: **"Əlin niyə qabar olub?" O, cavab verdi: "Ey Allahın rəsulu (s) ailəmi dolandırmaq üçün bellə, kəndirlə işləyirəm". Peyğəmbər onun əlini öpüb buyurdu: "Bu, cəhənnəm odunun heç zaman dəyməyəcəyi əldir"[3].**

Lakin, bəzi vaxtlar məşğuliyyətlərimizin çoxluğu bizi Allaha bəndəlik etməkdən, dini göstərişlərini yerinə yetirməkdən saxlayır. Odur ki, hər şeyi öz həddində yerinə yetirməyə çalışaq və özümüzü Allahın zikrindən, ibadətindən ayrı salmayaq.

---

1 "Şura", 38.

2 "Ət-Təhzib", c. 6, səh. 324.

3 "Usd əl-ğabə", c. 2, səh. 299.

Allah Qurani-kərimdə heç nəyə aldanmayan, ibadətlərini vaxtlı-vaxtında yerinə yetirən şəxslər haqqında buyurur:

رِجَالٌ لَّا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَن ذِكْرِ اللَّهِ وَإِقَامِ الصَّلوةِ وَإِيتَاءِ الزَّكَوةِ يَخَافُونَ يَوْمًا تَتَقَلَّبُ فِيهِ الْقُلُوبُ وَالْأَبْصَارُ ليجزيهم الله احسن ما عملوا و يزيدهم من فضله والله يرزق من يشاء بغير حساب

**"O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi (dəhşətdən ürəklərin duymaqdan, gözlərin görməkdən qalacağı) bir gündən (qiyamət günüdən) qorxarlar.**

**(Onların vaxtli-vaxtında, lazımınca ibadət etmələri, Allahdan qorxub pislikdən çəkinmələri ona görədir ki) Allah onlara etdikləri əməllərin ən gözəl mükafatını (yaxud gördükləri ən yaxşı işlərin əvəzini) versin, onlara olan lütfünü artırsın. Allah dilədiyinə saysız-hesabsız ruzi verər"[1].**

Tarixdə qeyd edilir ki, Peyğəmbərin (s) səhabələrindən biri həmişə ilk cərgədə o Həzrətin (s) arxasında namaz qılırdı. Bu səhabənin həyat tərzi çox ağır keçirdi. Peyğəmbər (s) bunu hiss edir və çox narahat olurdu. Cəbrail (ə) Peyğəmbərə (s) nazil olub buyurdu: "Ya rəsulullah, öz pulundan bir dinar o şəxsə ver. O da həmin pulla ticarətlə məşğul olsun". İslam peyğəmbəri (s) səhabəyə o miqdarda pulu verdi və o da tədricən ticarətə qoşuldu. Səhabənin sərvəti artdıqca yavaş-yavaş ilk cərgədən sonrakı cərgələrə və nəhayət daha məscidə - Peyğəmbərin (s) arxasında namaz qılmağa gəlmədi. Hətta dünya malına hərisliyi o həddə çatdı ki, dini zərurətləri icra

[1] "Nur", 37-38.

etməkdən belə uzaqlaşmağa başladı. Cəbrail (ə) yenidən Peyğəmbərə (s) nazil olub dedi: "Ey Allahın rəsulu (s), siz səhabənizi belə və ya dinin göstərişlərinə əvvəlki kimi əməl edən halda görmək istəyirsiz?" Həzrət buyurdu: "Əlbəttə ki, ilk vaxtlar olduğu kimi görmək istəyirəm". Vəhy mələyi dedi: "Ya Peyğəmbər (s) ona verdiyin dinarı al. Bu zaman o əvvəlki halına qayıdacaq". Belə də oldu. Peyğəmbər (s) ondan borcunu geri aldıqdan sonra o şəxs müflisləşib əvvəlki vaxtına qayıtdı.

Amma, Allah övliyaları nə qədər sərvətli olsalar da heç vaxt var-dövlət onları özünə təslim edə bilmir. Onlar bütün bunlarla yanaşı Allahlarını zikr edir, dua edir və buyuruqlarına təslim olurlar. Hətta onlar Allahı zikr etmək üçün bütün var-dövlətlərindən keçməyə belə hazırdırlar.

Həzrət İbrahim (ə) qoyun sürüsünü apardığı zaman bir cavanın "Subbuhun, quddusun, rəbbuna və rəbbul-məlaikəti vər-ruh", deyə zikr etməsini eşitdi. Bu zaman Allahın xəlili olan İbrahim buyurdu: "Bu zikri deyən kimdir? Əgər bunu bir daha təkrar etsəniz sürümün bir hissəsini sizə bağışalayaram". Yenə də bu zikr təkrar edildi: "Subbuhun, quddusun, rəbbuna və rəbbul-məlaikəti vər-ruh". Həzrət İbrahim (ə), onun bir dəfə də bu zikri oxumasını istədi və müqabilində bütün sürünü ona verəcəyini bildirdi. Yenə də zikr təkrar edildi və o sürünü orda qoyub uzaqlaşmağa başladı. Bu zaman arxadan səs gəldi: "Ey İbrahim, sürünü qoyub hara gedirsən?" İbrahim cavab verdi: "Mən şərtimə əməl edirəm, artıq qoyun sürüsü sənə məxsusdur". Cavan dedi: Mən Allahın vəhy mələyi olan Cəbra-

iləm. Biz sənin Allaha olan eşqini yoxlamaq üçün imtahan etdik"[1].

Allah övliyaları var-dövlətlərindən keçib Allahın zikrini, aldanmışlar isə Allahın zikrini əldən verib dünya malı tələb edirlər.

## Gözəl əxlaq sahibləri həmişə namaz qılırlar

Allah-taala Qurani-kərimdə insanın həris və eyni zmanda ona edilən bəzi pisliklərin qarşısında dözümsüz olduğunu və nəyəsə malik olduğu zaman ondan digərlərinin istifadə etməsinə mane olmasını xatırladır:

إِنَّ الْإِنسَانَ خُلِقَ هَلُوعًا. إِذَا مَسَّهُ الشَّرُّ جَزُوعًا. وَإِذَا مَسَّهُ الْخَيْرُ مَنُوعًا

**"Şübhəsiz, insan həris və dözümsüz yaradılmışdır. Ona pislik edildikdə taqətsiz olur. Lakin, ona xeyir çatdıqda digərlərinə mane olur (paxıllıq edir)"[2].**

Paxılların tezliklə öz cəzalarına çatacaqları haqqında isə oxuyuruq:

وَلاَ يَحْسَبَنَّ الَّذِينَ يَبْخَلُونَ بِمَا آتَاهُمُ اللهُ مِن فَضْلِهِ هُوَ خَيْرًا لَّهُمْ بَلْ هُوَ شَرٌّ لَّهُمْ سَيُطَوَّقُونَ مَا بَخِلُواْ بِهِ يَوْمَ الْقِيَامَةِ وَلِلّهِ مِيرَاثُ السَّمَاوَاتِ وَالأَرْضِ وَاللهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ

**"Allah tərəfindən bəxş olunmuş mal-dövləti sərf etməyə xəsislik edənlər heç də bunu özləri üçün xeyirli hesab etməsinlər. Xeyr, bu onlar üçün zərərlidir. Onların xəsislik etdikləri şey qiyamət günü boyunlarına dolanacaqdır. Göylərin**

---

[1] "Gəncinəyi-məarif", səh. 113.

[2] "Maric" , 19-20-21-ci ayələr.

**və yerin mirası Allaha məxsusdur. Allah hər bir əməlinizdən xəbərdardır!”** [1]
Həzrət Əli (ə) paxılların hərəkətindən təəccüb edərək buyurur:

عجبت للبخيل يستعجل الفقر الذى منه هرب و يفوته الغنى الذى اياه طلب فيعيش فى الدنيا عيش الفقراء و يحاسب الا غنياء

**“Paxıla təəccüb edirəm. O, qaçdığı kasıbçılığa giriftar olmuş və ehtiyaclıdır. O, dünyada yoxsullar kimi yaşasa da, axirətdə varlılar kimi hesab çəkiləcəkdir”[2].**

Lakin Allah-taala namaz qılan şəxslərin belə rəzil əxlaqi keyfiyyətdən uzaq olmalarını, onların həmişə namaz qılmalarını, öz mallarından kasıblara bağışlamalarını, Cəza gününə iman gətirmələrini, Allahın əzabından qorxmalarını, bu əzabdan amanda qalmaları üçün Ona pənah aparmalı olduqlarını xatırladır:

إِلَّا الْمُصَلِّينَ الَّذِينَ هُمْ عَلَى صَلَاتِهِمْ دَائِمُونَ وَالَّذِينَ فِي أَمْوَالِهِمْ حَقٌّ مَّعْلُومٌ لِّلسَّائِلِ وَالْمَحْرُومِ وَالَّذِينَ يُصَدِّقُونَ بِيَوْمِ الدِّينِ وَالَّذِينَ هُم مِّنْ عَذَابِ رَبِّهِم مُّشْفِقُونَ

**“Namaz qılanlardan başqa. Onlar həmişə namaz qılırlar. Hansılar ki, mallarında məlum haqq var. İstəyənlər və kasiblar üçün. Onlar cəza gününə inanırlar. Hansılar ki, Allahın əzabından qorxurlar”**[3].

Məlum ayədə “həmişə namaz qılırlar” ibarəsində məqsəd hər bir işi kənara atıb, bütün günü rükuda, səcdədə olmaq yox,

---

[1] “Ali-imran”, 180.

[2] “Nəhcul-bəlağə”, səh. 491.

[3] “Məaric”: 22-27-ci ayələr.

əksinə yalnız müəyyən edilmiş vaxtlarda (5 dəfə zöhr, əsr, məğrib, işa, sübh) namaz qılmaqdır. Müstəhəb olan digər namazları da, xüsusi ilə gecə namazını bu ibadətlər cərgəsinə daxil etmək olar.

## Möminlər namazlarını qoruyurlar

Allah Qurani-kərimdə buyurur:

وَالَّذِينَ هُمْ عَلَى صَلَاتِهِمْ يُحَافِظُونَ

"Və onlar (möminlər) ki, namazlarını qoruyurlar"[1].

Namaz iki halda qoruna bilər:

1. Namaz qılan şəxs namazın hökmlərinin düzgün icrasına, surə və zikrləri doğru qiraət etməsinə diqqət yetirməlidir.

Namazda qorunması lazım olan şərtlərə və onların mənəvi yönlərinə diqqət edək:

a) Namaz qılan şəxsin bədəni və paltarı nəcisdən pak olmalıdır. Bu, həm də insanın günah və rəzil əxlaqi keyfiyyətlərdən pak olmasına işarədir.

Bəlkə də, dəstəmaz almaqdan məqsəd maddi aləmdən əlini üzüb, mənəviyyata yaxınlaşmaq, qüsl isə şəhvət dəryasından paklıq sahilinə çıxmaqdır.

b) Namaz halında üzü qibləyə - Kəbə evinə tərəf dayandığımız kimi, bütün vücudumuzu, qəlbimizi də o evin sahibinə - Allaha yönəltməliyik.

---

[1] "Məaric", 34.

q) Namaz vaxtlarına diqqət yetirmək insanı ömr sərmayəsinin qədrini bilməyə, bu xəzinədən lazım olan bir gün üçün səmərli istifadə etməyə sövq edir.

c) Namaz qılınan yerin mübah olmasının lazımlığı, insanın maddi aləmin fövqündə dayanmasının rəmzidir. Buna görə də namaz "Merac"a bənzədilmişdir.

2. Yuxarıda qeyd edilən şərtlərdən başqa Namazda saf niyyətin, qəlb hüzurunun olması da çox önəmlidir. İslam Peyğəmbərindən (s) belə nəql edilir:

لا صلاه الا بحضر القلب

**"Qəlbin hüzuru olmadan namaz yoxdur"[1].**

Namazda nə qədər qəlb hüzuru olarsa, namaz da o qədər qəbul edilir. Belə ki, əgər insanın namaz halında Allaha diqqəti bir-iki dəqiqəlik olarsa, onun bir iki dəqiqəlik namazı da qəbul edilir və namazın qalan hissəsi isə boş əyilib qalxmaqdan başqa bir şey olmur.

İmam Baqir (ə) buyurur:

**"Bəndənin tam qəlblə qıldığı namazı yuxarı aparılır".**

İndiyə qədər günəşin mikroskopun vasitəsi ilə kağızı yandırmasına diqqət yetirmisinizmi? Niyə günəş mikroskopsuz kağızı yandırmır? Çünki, mikroskop əhatəsində olan bütün günəş şualarını bir yerə toplayır və yaranan hərarət vasitəsi ilə kağız yanmağa başlayır.

İnsan namaz halında qəlb hüzuru ilə diqqətini bir yerə topladıqda fikrində mikroskopun fəaliyyəti icra olur. Namaz qılan şəxsdə bu hal yaranan zaman ilahi feyzi qəbul etməyə hazır olur. Allahın rəhmət feyzi hər yeri əhatə etmişdir. Yalnız biz

---

[1] "Ərbəin", Şeyx Bəhai, hədis. 37.

özümüzü onu qəbul etməyə hazır etməliyik ki, Allahın eşqi canımıza yayılsın.

## Namaz uğrunda nə etməli?

Əksər vaxtlarda hansısa xeyirli bir işi icra etmək istədikdə bir çox maneələrlə qarşılaşırıq. Bütün bunlar ruhiyyəmizi sarsıdır və bizim sona qədər işimizi layiqincə davam etdirməyimizin qarşısını alır. Lakin, mömin olan şəxs dini əmrləri icra emək və qadağaların qarşısını almaq üçün bütün bu çətinliklərə dözərək mübarizə etməli və tam sərbəstliyinin qorunması üçün çıxış yolu tapmalıdır. Bəzən bu çıxış yolu mənəvi görkəm alır. Belə ki, insan Allaha təvəkkül, məsumlara təvəssül etməklə işlərinin həllini asanlaşdırır.

Ümumiyyətlə, Allahpərəstlik yolu bir çox maneələrlə üz-üzədir. Belə ki, bu inancın yolçusu bəzən, islamın qanunlarını doğruluğunu, günü-gündən inkişafını görüb, dözə bilməyən din düşmənlərinin təzyiqləri və ya bəzi dinsizlərin onları məsxərə etmələri və yaxud da öz nəfsani istəklərinin, şeytanın həmlələri ilə üz-üzə gəlir. İslam Peyğəmbərinin (s) Kəbədə namaz qıldığı zaman əziyyət edilməsi, Bilalın bu ilahi ibadətə görə olmazın əzablara dözüb, düşmənlər tərəfindən şallaqlanması buna tarixi nümunələrdir.

Həzrət Zeynəbin (ə) Kərbəlada çəkdiyi amansız acılar, əsirlikdə yol boyu üzləşdiyi dözülməz çətinliklər onu namazından ayrı sala bilmir. O Həzrət (ə) gündəlik vacib namazları ilə yanaşı bu səfərdə, hətta gecə namazlarını belə həyata keçirirdi. Baxmayaraq ki, taqətsizlik üzündən o xanım namazlarını otraq vəziyyətdə qılırdı.

Qurani-kərimdə oxuyuruq ki, islam dinindən qabaqkı dönəmlərdə də dinə qarşı təzyiqlər göstərilib və mömin şəxslər Allahın yardımı ilə bunların qarşısında dayanıblar.

الَّذِينَ أُخْرِجُوا مِن دِيَارِهِمْ بِغَيْرِ حَقٍّ إِلَّا أَن يَقُولُوا رَبُّنَا اللَّهُ ۗ وَلَوْلَا دَفْعُ اللَّهِ النَّاسَ بَعْضَهُم بِبَعْضٍ لَّهُدِّمَتْ صَوَامِعُ وَبِيَعٌ وَصَلَوَاتٌ وَمَسَاجِدُ يُذْكَرُ فِيهَا اسْمُ اللَّهِ كَثِيرًا ۗ وَلَيَنصُرَنَّ اللَّهُ مَن يَنصُرُهُ ۗ إِنَّ اللَّهَ لَقَوِيٌّ عَزِيزٌ (٤٠)

**"Onlar ki, haqsızlıq üzündən ev və şəhərlərindən qovuldular, yalnız belə deyirdilər: "Bizim Rəbbimiz tək olan Allahdır". Əgər Allah bəzilərini bəzilərinin əli ilə dəf etməsə yəhudi və məsihilərin ibadətxanaları, kilsələrı və Allahın adı çox çəkilən məscidlər viran ediləcək. Allah ona yardım edənlərə (dinini müdafiə edənləri) yardım edər. Allah güclü və məğlubedilməzdir"[1].**

Bəzən də insanın iman və əqidəsini qorumaq üçün ayrı bir şəhərə, ölkəyə hicrət etməsi lazım olur. Qurani-kərimdə oxuyuruq:

رَّبَّنَا إِنِّي أَسْكَنتُ مِن ذُرِّيَّتِي بِوَادٍ غَيْرِ ذِي زَرْعٍ عِندَ بَيْتِكَ الْمُحَرَّمِ رَبَّنَا لِيُقِيمُوا الصَّلَوٰةَ فَاجْعَلْ أَفْئِدَةً مِّنَ النَّاسِ تَهْوِي إِلَيْهِمْ وَارْزُقْهُم مِّنَ الثَّمَرَاتِ لَعَلَّهُمْ يَشْكُرُونَ

**"Ey Rəbbimiz! Mən əhli-əyalımdan bəzisini (İsmayılı və anası Hacəri) Sənin Beytül-həramının (Kəbənin) yaxınlığında, əkin bitməz bir vadidə (dərədə) sakin etdim. Ey Rəbbimiz! Onlar (vaxtlı-vaxtında, lazımınca) namaz qılsınlar deyə belə etdim. Elə et ki, insanların bir qisminin qəlbləri onlara (Kəbənin ziyarətinə, əhli-əyalıma mərhəmət göstərməyə) meyl etsin. Onlara (bu**

---

[1] "Həcc", 40.

**yerin ağaclarının) meyvələrindən ruzi ver ki, (nemətinə) şükür edə bilsinlər!"**[1]

İranın Ərak ustanına tabe olan Saruq  məntəqəsində yaşayan Kərbəlayi Məhəmmədkazım adlı bir şəxs ərbab[2]ının öz taxıllarının zakatını ödəmədiyi üçün ondan ayrılır, hər bir əzab-zəiyətə düzüb ailəsindən, ata-anasından ayrı düşmək  çətinliyini cana alaraq uzaq bir şəhərə işləməyə gedir. Uşaqlıqda Quran oxumağa çox həvəsi olsa da lakin, maddi durmlarının çox aşağı olması üzündən  heç bir molla məktəbinə getməyən Kərbəlayı Kazım yaxında olan bir imamzadəyə ziyarətə gedir. Burda olan vaxt iki nurani gənc içəri daxil olur və salam verib, kef-əhval tutduqdan  sonra ondan soruşurlar:

-Məhəmmədkazım Quran oxuya bilirsən?

-Mən heç zaman məktəbə getmədim- deyə təəssüflə onlara cavab verir.

Bu iki nurani gənc ona imamzadənin tavanında yazılmış Qurani-kərimin ayələrini (Əraf surəsinin 54-59 cu ayələri) göstərərək deyirlər:

-Bizimlə tavanda yazılmış ayələri oxu:

إِنَّ رَبَّكُمُ اللهُ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالأَرْضَ فِي سِتَّةِ أَيَّامٍ ثُمَّ...

**"Həqiqətən, Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi (və onun əhatə etdiyi hər şeyi) yaradıb hökmü altına alan, (bir-birini) sürətlə təqib edən gündüzü gecə ilə (gecəni də gündüzlə) örtüb bürüyən, günəşi, ayı və ulduzları əmrinə boyun əymiş halda yaradan Allahdır…"**

---

1 "İbrahim", 37.

2 Ərbab- rəiyyətin tabe olduğu şəxs, başçı, puldar

Sonra bu iki şəxs onun sinəsinə əllərini sürtüb gözdən itirlər. Baş verənlərədn qorxaraq huşunu itirən Məhəmmədkazım özünə gələndən sonra bütün Qurani-kərimi əzbər bilidiyini dərk edir.

Bu hadisə Ayətullah Bururcerdi və Mərəşi Nəcəfinin zamanında baş verir və onlar bu şəxsi yanına çağırıb imtahan edir və Allahın ona bağışladığı kəramətin şahidi olurlar.

Həqiqətən də Allah dinin hökmlərinin icrası uğrunda hər bir çətinliyə dözən şəxslərə böyük savablar, hədiyyələr bəxş edir.

## Məscidin memarı namaz qılan olmalıdır

Allah yanında ən sevimli yer məsciddir. Çünki, bu ibadət ocağında insanlar dünya bağlılığından ayrılır və Allaha həmdü-səna edirlər. Rəsuli-əkrəm (s) buyurur:

احب البلاد الى الله مساجدها

**“Allahın ən sevimli yeri məsciddir”**[1].

Pəhrizkarların səngəri, ibadətgahı məscidlərdir. Allahın rəsulu (s) bu haqda buyurur:

المسجد بيت كل تقى

**“Məscid pəhrizkarların-təqva əhlinin evidir”**[2].

Təqvalı şəxs dünyanı mehmanxana hesab edib məscidi isə öz doğma evi hesab edir. Bu barədə İslam peyğəmbəri (s) buyurur:

كونوا فى الدنيا اضيافا و اتخذوا المساجد بيوتا

---

[1] “Nəhc əl-fəsahə”, “Məscid” bölümü.

[2] Yenə Orada.

**“Dünyada qonaq kimi yaşayın, məscidi isə eviniz hesab edin”[1].**

Həsən ibn Məhəmməd Deyləmi “İrşad əl-qülub” kitabında Həzrət Əlidən (ə) belə nəql edir:

“Mənim üçün məsciddə oturmaq Cənnətdə oturmaqdan daha üstündür. Çünki, Cənnətdə oturmaq məni sevindirir, lakin məsciddə oturmaq isə Allahın razılığına səbəb olur”. Əmirəl-mömininin belə buyurmasına səbəb bu ayədir:

وَرِضْوَانٌ مِّنَ اللّهِ أَكْبَرُ

**“Allahın razılığı isə hər nemətdən böyük və dəyərlidir”**[2].

İslam dinində məscidə getməyin böyük fəziləti olduğu kimi, məscid tikib, onu xalqın ixtiyarına verməyin də böyük savabı var. İslam dinində ilk məscid banisi və memarı Allahın həbibi Məhəmməd peyğəmbərdir (s). O Həzrət (s) bu dəyərli işi igörən şəxslər haqqında buyurur:

من بنی مسجدا و لو مثل مفحص قطاه بنی الله له بيتا فی الجنه

**“Hər kəs bir məscid tiksə, Allah onun üçün cənnətdə bir ev tikər. Hətta onun tikdiyi məscid dəvə quşu yumurta qoya biləcəyi qədər kiçik olsa belə”[3].**

Məscid tikməyin böyük əhəmiyyət daşıması ilə əlaqədar olaraq İslam dinində bu böyük məsuliyyət hər kəsə verilmir. Məscid tikən şəxs Allaha, Qiyamət gününə inamlı, namaz qılıb, zəkat verən olmalıdır. Qurani-kərimdə oxuyuruq:

---

[1] “Nəhc əl-fəsahə”, səh .514.

[2] “Tövbə”, 72.

[3] “Nəhc əl-fəsahə”.

إِنَّمَا يَعْمُرُ مَسَاجِدَ اللّهِ مَنْ آمَنَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَأَقَامَ الصَّلاَةَ وَآتَى الزَّكَاةَ وَلَمْ يَخْشَ إِلاَّ اللّهَ فَعَسَى أُوْلَـئِكَ أَن يَكُونُواْ مِنَ الْمُهْتَدِينَ

**“ Allahın məscidlərini o şəxslər abad edirlər ki, Allaha, qiyamət gününə inanır, namaz qılır, zəkat verir, Allahdan başqa heç kəsdən qorxmurlar. Ümid var ki, onlar hidayət əhli olsunlar”[1].**

## Evlər qibləyə tərəf tikilməlidir

Rəhman və Rəhim olan Alllah insanlara əcr və savab bəxş etmək üçün, demək olar, bir bəhanə axtarır. Belə ki, biz niyyətimizi saflaşıdırmaqla gündəlik əməllərimzidə Tanrının razılığını qazana bilərik. Məsələn, “islam təmizliyi sevir” düsturuna əsasən paltarlarımızı yumağımız və ya qüvvət əldə edib, yaxşı işlər görmək üçün bütün yeyib, içdiklərimiz ibadət sayıla bilər. Belə əməllərdən biri də evlərin qibləyə tərəf tikilməsidir. Çünki, namaz qılındığı zaman insan üzü qibləyə tərəf dayandığı üçün, evlərin də qibləyə tərəf tikilməsi böyük əhəmiyyətə malikdir. Allah Qurani-kərimdə buyurur:

وَأَوْحَيْنَا إِلَى مُوسَى وَأَخِيهِ أَن تَبَوَّءَا لِقَوْمِكُمَا بِمِصْرَ بُيُوتًا وَاجْعَلُواْ بُيُوتَكُمْ قِبْلَةً وَأَقِيمُواْ الصَّلَوةَ وَبَشِّرِ الْمُؤْمِنِينَ

**“Musaya və qardaşına: "Camaatınız üçün Misirdə evlər tikdirib onları qiblə (namazgah) edin, namaz qılın və möminləri (zəfərlə, Cənnətlə) müjdələyin!" - deyə vəhy etdik”[2].**

Çalışaq hər bir işi Onun göstərişinə əsasən həyata keçirərək zəfər və cənnətlə müjdələnək.

---

1 “Tövbə”, 18.

2 “Yunus”, 87.

## Namaz qılanların məqamları

Hər şeyin yaxşı və düzgün icra edilməsi üçün müəyyən qanunlar nəzərdə tutulmuşdur. Allah yanında böyük əhəmiyyətə malik olan namazın dəqiq şəkildə qılınması üçün də bir çox şəriət hökmləri qeyd edilmişdir. Hansı ki, namaz qılan şəxs bu dini hökmlərə, ədəb qaydalarına riayət etməlidir. Namazın düzgün şəkildə qılınması haqqında "Şəriət hökmlərinin izahı" kitablarında geniş məlumat verilmişdir. Bu bölümdə isə yalnız namazın ədəb qaydaları haqqında qısa məlumat verməyi məqsədəuyğun sayırıq.

## Namazı xüşu halında qılmaq

Allah-taalla Qurani-kərimdə namazını xüşu ilə qılan möminləri nicat tapanlar hesab edərək buyurur:

الَّذِينَ هُمْ فِي صَلَاتِهِمْ خَاشِعُونَ

**"O kəslər ki, namazlarında (hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha) müti olub (Ona) boyun əyərlər! (Allahın qarşısında kiçilərlər!)"**[1]

Təvazö və ədəb mənasında olan "xüşu" böyük şəxsiyyətlərin qarşısında insanın ruh və cismində meydana gələn hala deyilir. Yuxarıda qeyd edilən ayədə təkcə namaz yox, namazı xüşu ilə, hər şeyi unudaraq, ruhən qılınması möminlərin nişanəsi sayılır. Belə ki, möminlərin namazları ruhsuz və yalnız quru sözlərdən ibarət deyil, əksinə namaz qıldıqda elə bir hala düşürlər ki, sanki bütün vücudları ilə Allahı dərk edir, onun qüdrət və əzəmətindən başqa heç nəyin fərqində olmurlar.

---

[1] "Möminin":2.

Ümumiyyətlə, hər bir şəxs Mütəal Allah qarşısında özünün acizliyini, tam mənada heç nəyə malik olmadığını, uca Tanrının isə hər şeyə qadir və sonsuz qüdrət sahibi olduğunu dərk etdiyi zaman onda xüşu və təvazö halı yaranar. Allah Quranda buyurur:

إِنَّمَا يَخْشَى اللَّهَ مِنْ عِبَادِهِ الْعُلَمَاءُ إِنَّ اللَّهَ عَزِيزٌ غَفُورٌ

**"Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar. (Onlar elm sahibi olduqları üçün Allahın yeganəliyini, heybət və əzəmətini daha yaxşı başa düşür və Ondan daha çox qorxurlar). Həqiqətən, Allah yenilməz qüvvət sahibidir, (möminləri) bağışlayandır!"[1].**

Bu baxımdan, din öndərləri həm Allahın əzəmətini, həm də özlərinin aciz olmalarını dərk etdikləri üçün daha çox xüşu, təvazö əhli olmuşlar. Belə ki, Rəsuli-əkrəm (s) namaz qıldığı halda dünya dağılsaydı belə ona təsir etməzdi[2]. Həzrət Əli (ə) namaz qıldığı zaman özünü elə unudurdu ki, ayağından oxu çıxartdıqda xəbəri olmurdu[3]. Şərih deyir: "Peyğəmbərin (s) məscidinə daxil olanda gördüm ki, İmam Hüseyn (ə) səcdə halında üzünü torpağa qoyaraq münacat edir:

"Ey mənim mövlam, əgər məni günahkarlarla birgə cəhənnəmə göndərsən onlara deyərəm ki, mən Səni çox istəyirəm"[4]. Məhəmməd Şakiri deyir: "İmam Həsən Əsgəri (ə) mehrabda

---

[1] "Fatir", 28.

[2] "Şəmailun-nəbi", səh. 157.

[3] "Əsrarul-hukəm", c. 2, səh. 527.

[4] "Səhifətul-hüseyn", səh. 62.

oturub, səcdəyə gedərdi. Mən yatıb oyandıqdan sonra da onu səcdədə görərdim”[1].

İmam Sadiq (ə) buyurur: **“Mənim bir hacətim var idi. Dəstamaz alıb, hacətimin hasil olması üçün namaza başladım. Namazdan o qədər (mənəvi) ləzzət aldım ki, öz hacətimi unutdum”**[2].

Aşağıda qeyd edilən göstərişlərə əməl etmək insanda xüşu və xüzunun yaranmasına səbəb olur:

1. Kimin qabağında dayandığımızın, kiminlə söhbət etdiyimizin fərqinə varaq. Edilən qiyam, rüku və səcdələrdən məqsədin nə olduğunu bilək?

2. Namazın mənasına diqqət yetirmək.

3. Surələri aram və vüqarla qiraət etməyin qəlbin hüzurunda böyük rolu var.

4. Qəlbimizə gələn fikirləri tez özümüzdən uzaqlaşdıraq. Əks təqdirdə müxtəlif fikirlər bizi əsl namaz qılmaq səadətindən məhrum edəcək.

5. Gözümüzü ətrafa baxmaqdan yayındıraraq, yalnız möhur və səcdə yerinə diqqət yetirək.

6. Yorğun, yuxulu və hansısa bir bədən üzvünün ağrıdığı vaxtlarda namaz qılmayaq.

## Namaz qılan zaman bəzənmək

Hər bir şəxs məhəbbət bəslədiyi, möhtərəm sandığı bir şəxsin görüşünə getdikdə özünü səhmana salır, ən gözəl, təmiz paltarını geyinir, ətirlənir və s. Ən böyük məhəbbətə, ehtirama layiq olan uca Allahdır. Demək, onunla görüşə getdikdə -

[1] “Namaz”, Hüseyn Səburi.

[2] “Beheşte-cavidan”, səh. 214.

namaz qıldıqda özümüzü səhmana salıb, ən səliqəli paltarlarımızdan istifadə edib, ətirlənməyimiz lazımdır.

"**Əraf**" surəsində oxuyuruq:

يَا بَنِي آدَمَ خُذُواْ زِينَتَكُمْ عِندَ كُلِّ مَسْجِدٍ

**"Ey Adəm oğulları! Hər bir ibadət vaxtı (namaz qılarkən, məscidə gedərkən və ya təvaf edərkən) gözəl libaslarınızı geyin…"**[1]

Quran şərhçiləri məlum ayədə qeyd edilən "zinət" sözünü açıqlayarkən yazırlar: "Bu, həm cismani zinətlər - gözəl və təmiz geyinmək, saçı daramaq, ətirlənmək və s., həm də mənəvi zinət - bütün əxlaqi sərvətlərə malik olmaq mənasındadır".

Bu ayənin şərhində İmam Sadiq (ə) belə buyurur: **"Saçı daramaq ruzinin cəlb olunmasına, insanın gözəlləşməsinə, ehtiyaclarının ödənilməsinə səbəb olur"**[2]**.**

İmam Səccad (ə) haqqında nəql edilir: **"Namaz qılmağa başladığı vaxtlarda cənamazın yanına qoyduğu ətirlə ətirləniridi"**[3]**.**

İmam Sadiq (ə) isə buyurur: **"Ətirli halda qılınan bir rükət namaz ətirsiz halda qılınan yetmiş rükət namazdan üstündür"**[4]**.**

İslam peyğəmbərindən (s) nəql olunduğuna görə, o, qadınların zinətsiz halda namaz qılmalarını xoşlamırdı[5].

İslam Peyğəmbəri (s) mənəvi gözəlliyi hər şeydən üstün tutaraq buyurur:

---

1 "Əraf", 31.

2 "Xisal", səh..268.

3 "Təhlile əz zendeganiye İmam Səccad"

4 "Əsrar əs-səlat", Məliki Təbrizi.

5 "Dəaimul İslam", c. 1, səh. 177.

**“Əgər Allah bir şəxsi xeyirli zinətlərlə bəzəmək istəsə ona daxili paklıq bəxş edər”[1].**

İmam Əli (ə) gözəllik haqqında buyurur:

**“Kişinin gözəlliyi səbr, möminin gözəlliyi təqva, bəndənin gözəlliyi itaət, elmin gözəlliyi isə onu başqalarına çatdırmaqdır...”** [2].

## Gecəni sübhə qədər namaz qılanlar

Allah-taala “Furqan” surəsində özünün yaxşı bəndələrinin səciyyələrindən birinin gecəni sübhə qədər namaz qılmaq olduğunu qeyd edir:

وَالَّذِينَ يَبِيتُونَ لِرَبِّهِمْ سُجَّداً وَقِيَاماً

“Onlar gecəni Rəbbi üçün səcdə və qiyam (namaz) halında keçirərlər”[3].

Belə ki, bu şəxslər gecə yarısı yuxudan oyanır, heç kəs onları görmədən, səmimi, saf niyyətlə Allahla razü-niyaz, ibadət, münacat edirlər. Həzrət Peyğəmbər (s) gecə namazını möminlərin izzəti sayaraq buyurur:

شرف المومن قيامه بالليل و عزه استغنائه عن الناس

**“Möminin şərəfi gecə yuxudan durub namaz qılmaq, izzəti isə başqalarından ehtiyacsız olmaqdadır”**[4]

Həzrət Əli (ə) isə buyurur:

من كثر فى ليله نومه فاته من العمل ما لا يستدركه فى يومه

---

[1] “Tənbih əl-xəvatir”, c. 2, səh. 229.

[2] “Ğürəru əl- hikəm”, c. 1, səh. 370.

[3] “Furqan”, 64.

[4] “Bihar əl-ənvar”, c. 77, səh. 120.

**“Gecəni çox yatan şəxs (yəni gecə namazı qılmasa), elə əməlləri itirmiş olur ki, onları gündüz əldə edə bilməz”[1].**

Başqa bir hədisdə İmam Sadiq (ə) buyurur:

فیما ناجی الله (عز و جل) به موسی بن عمران (ع)

قال: یابن عمران کذب من زعم انه یحبنی فاذا جنه اللیل نام عنی

**“Allah-taala Musa ibn İmrana buyurdu: “Ey İmranın oğlu, Məni sevdiyini güman edən, gecə qaranlığında isə gözlərini bağlayanlar (yatanlar) yalan deyirlər, (məgər dost dostu ilə etdiyi söhbətdən ləzzət almazmı?”[2]**

O həzrət digər bir hədisdə gecə namazının əhəmiyyəti haqqında buyurur:

لا تدع قیام اللیل فان المغبون من حرم قیام الیل

**“Gecə namazını əldən vermə. Həqiqətən, gecə namazından məhrum olan şəxs ziyankardır” [3].**

Doğrudur, ayədə sözügedən “يَبِيتُونَ” ifadəsinin mənası gecəni sübhə qədər səcdə və qiyam halında sübh etməyə deyilir. Lakin, məlumdur ki, ayədə əsas məqsəd gecənin müəyyən bir hissəsini Allaha ibadət etmək nəzərdə tutulmuşdur.

## Göz yaşı axıdaraq səcdə edənlər

İbadətin gözəl xüsusiyyətlərindən biri də onun kövrək qəlblə, xüşu, təvazö halında qılınmasıdır. Həzrət Peyğəmbərin (s), məsum imamların (ə) və övliyaların ibadətlərinə nəzər saldıqda

---

1 “Ğürər əl-hikəm”, hədis. 289.

2 “Bihar əl-ənvar”, c. 13, səh. 329.

3 “Bihar əl-ənvar”, c. 83, səh. 127.

onların titrəyiş, göz yaşları içində namaz qılmalarının, münacat etmələrinin şahidi oluruq. Belə ki, alınlarını səcdəyə qoyub, uzun-uzadı "İlahi əl-əfv, İlahi əl-əfv" deyə Rəhman və Rəhim Allahdan bağışlanmalarını diləyirlər. Qurani-kərim belə şəxslər haqqında buyurur:

أُوْلَئِكَ الَّذِينَ أَنْعَمَ اللَّهُ عَلَيْهِم مِّنَ النَّبِيِّينَ مِن ذُرِّيَّةِ آدَمَ وَمِمَّنْ حَمَلْنَا مَعَ نُوحٍ وَمِن ذُرِّيَّةِ إِبْرَاهِيمَ

وَإِسْرَائِيلَ وَمِمَّنْ هَدَيْنَا وَاجْتَبَيْنَا إِذَا تُتْلَى عَلَيْهِمْ آيَاتُ الرَّحْمَن خَرُّوا سُجَّدًا وَبُكِيًّا

**"Bunlar Adəmin və Nuhla gəmiyə mindirdiyimiz adamların nəslindən, İbrahimin, İsrailin (Yəqubun) nəslindən seçib haqq yola yönəltdiyimiz və Allahın nemət bəxş etdiyi peyğəm-bərlərdəndir. Onlar Rəhmanın (Allahın) ayələri özlərinə oxunduğu zaman ağlayaraq səcdəyə qapanırdılar. [İdris Adəmin, Nuh İdrisin, İbrahim Nuhun (və ya Nuhun gəmisində olanlardan birinin), İsmayıl, İshaq, Yəqub İbrahimin nəslindən, Musa, Harun, Zəkəriyya və İsa isə Yəqubun nəslindən olan peyğəmbərlərdəndir]"[1].**

Ayədən məlum olur ki, övliyalar Allahın nişanələrinə diqqət yetirib, acizliklərini duyur və ixtiyarsız olaraq səcdəyə düşüb, göz yaşı axıdırlar.

## Namaz başqa ibadətlərlə yanaşıdır

Qurani-kərimin müxtəlif ayələrində namaza əmr olunduğu zaman digər ibadətlərin - zəkat, sədəqə, yaxşılığa əmr, pisliyə qadağa (əl-əmru bil-məruf, vən-nəhyu ənil-münkər), məhrum-lara borc vermək - icrasına da təkid edilmişdir. Bu da İslam dininin ibadi hökmlərinin əhatəliyinin nişanəsidir. Belə ki, Allaha ibadət etməklə yanaşı bəzi ictimai-iqtisadi məsələlərə -

---

[1] "Məryəm", 58.

yoxsullara əl tutmaq, insanları yaxşılığa dəvət edib, pisliklərdən çəkindirmək və s. toxunulmuşdur. Yuxarıdakı məsələlər haqqında bu ayələrə "Bəqərə":83, "Ənfal":3, "Tövbə":71, "Loğman":17, "Muzzəmil":20 və s. müraciət edilə bilər.

Burada namazın Quran və imamət məsələsi ilə sıx əlaqəsi haqqında söhbət açırıq:

## Namaz və Quran

Qurani-kərim Allahın yer üzünə göndərdiyi sonuncu və Qiyamət gününə qədər təhrif edilmədən qorunulacaq müqəd-dəs kitabdır. İslam peyğəmbərinə (s) iyirmi üç il ərzində nazil olan bu kitab həqiqətləri aydınlaşdırır, keçmiş ümmətlərin başına gələn ibrətamiz hadisələrdən xəbər və düşüncə sahib-lərinə nəsihətlər verir. Qurani-kərimdə Quran haqında oxuyu-ruq:

ولقد انزلنا اليكم ءايت مبينات و مثلا من الذين خلوا من قبلكم و موعظة للمتقين

**"Həqiqətən, Biz (Quranda) sizə (haqqı nahaqdan ayırd edən) açıq-aşkar ayələr, sizdən əvvəl gəlib-gedənlər (keçmiş ümmətlər) barəsində məsəllər (hekayətlər) və müttəqilər üçün öyüd-nəsihət nazil etdik"[1].**

Quranda olan bilgi və qanunlar, fasahət və bəlağət (üslubiyyət) o qədər zəngin və dəqiqdir ki, bütün insan və cinlər əl-ələ versələr belə onun mislini gətirə bilməzlər. Quran buyurur:

قُل لَّئِنِ اجْتَمَعَتِ الإِنسُ وَالْجِنُّ عَلَى أَن يَأْتُواْ بِمِثْلِ هَذَا الْقُرْآنِ لاَ يَأْتُونَ بِمِثْلِهِ وَلَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيرًا

[1] "Nur", 34.

**“(Ya Peyğəmbərim!) De: "Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qurana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər"[1].**

İslam Peyğəmbəri (s) Quran haqqında çox gözəl buyurur:

ان هذا القران مآدبة الله فتعلموا مادبت مااستطعتم

**“Quran Allahın ziyafət süfrəsidir. Bacardığınız qədər bu ziyafətdən faydalanın”[2].**

Allah-taala “Ənam” surəsində axirətə inananlrın Quranı təsdiq etməsini, Quranı qəbul edənlərin isə namaz əhli olduğu-nu qeyd edir:

وَهَذَا كِتَابٌ أَنزَلْنَاهُ مُبَارَكٌ مُّصَدِّقُ الَّذِي بَيْنَ يَدَيْهِ وَلِتُنذِرَ أُمَّ الْقُرَى وَمَنْ حَوْلَهَا وَالَّذِينَ

يُؤْمِنُونَ بِالآخِرَةِ يُؤْمِنُونَ بِهِ وَهُمْ عَلَى صَلاَتِهِمْ يُحَافِظُونَ

**“Bu (Quran) da mübarək (xeyir-bərəkəti daimi, faydası çox olan), özündən əvvəlkiləri təsdiq edən bir kitabdır ki, onu sənə Məkkə əhlini və ətrafındakı insanları (Allahın əzabı ilə) qorxutmaq üçün nazil etmişik. Axirətə iman gətirənlər ona da iman gətirər, namazlarını da qoruyub saxlayarlar (vaxtlı-vaxtında qılarlar)”[3].**

Qurani-kərimdən faydalanıb, ona diqqət edənlər şübhəsiz ki, Allaha ibadət edir, namazlarını vaxtında qılırlar. Allah-taala belə şəxslərin əməlisaleh və mükafata layiq olduğunu buyurur:

وَالَّذِينَ يُمَسِّكُونَ بِالْكِتَابِ وَأَقَامُواْ الصَّلوةَ إِنَّا لاَ نُضِيعُ أَجْرَ الْمُصْلِحِينَ

---

[1] “İsra”, 88.

[2] “Vəsail əş-şiə”, c. Səh. 168.

[3] “Ənam”, 92.

**"Kitabdan (möhkəm) yapışanlar, (vaxtlı-vaxtında, lazımınca) namaz qılanlar (bilsinlər ki) Biz əməlisalehlərin mükafatını zay etmirik!"[1]**

Başqa bir ayədə isə Quran oxuyub, namaz qılan və Allahın onlara bəxş etdiyi ruzilərdən ehsan verən şəxslərin savabı isə tükənməz olacağı haqında qeyd edilir:

إِنَّ الَّذِينَ يَتْلُونَ كِتَابَ اللَّهِ وَأَقَامُوا الصَّلَوٰةَ وَأَنفَقُوا

مِمَّا رَزَقْنَاهُمْ سِرًّا وَعَلَانِيَةً يَرْجُونَ تِجَارَةً لَّن تَبُورَ

**"Allahın Kitabını oxuyan, namaz qılan, özlərinə verdiyimiz ruzilərdən (Allah yolunda) gizli və aşkar xərcləyənlər kasad olmayacaq bir ticarət (savab) umarlar..."[2]**

## Namaz və imamət məsələsi

İslam etiqadının ayrılmaz prinsiplərindən sayılan İmamət məsələsi dinin inkişafında, təhlil və tətbiqində və onun müxtəlif xarici təzyiqlərdən qorunmasında çox böyük əhəmiyyət daşıyır. İmam, Allahın göstərişi və Peyğəmbərin (s) vasitəsi ilə təyin edilir. Qurani-kərimin bir çox ayələri, İslam peyğəmbərinin (s) müxtəlif zamanlarda, xüsusilə "Qədir Xum" hadisəsində verdiyi açıqlamasına görə, Peyğəmbərdən (s) sonrakı İmam, həzrət Əli (ə) və onun on bir övladıdır (ə).

İmamların vəzifəsi Peyğəmbərdən (s) sonra onun canişini olmaq, bütün müsəlman ümmətinin məsuliyyətini, başçılığını öhdəsinə almaqdır. İmamdan itaət etmək eyni ilə Peyğəm-

[1] "Əraf", 170.

[2] "Fatir", 29.

bərdən (s) itaət etməkdir. Zamanının imamını tanımadan dünyadan köçən insan cahillik (İslamdan öncəki dövr) dönəmində ölmüş şəxs kimidir. Hətta bəzi rəvayətlərdə imamət məsələsi imanla eyni tutulur. Belə ki, İmam Cəfər Sadiqdən (ə) İslamla imanın fərqi haqqında soruşulduqda o Həzrət (ə) cavab verir:

الاسلام هو الظاهر الذی علیه الناس شهادة ان لا اله الا الله و حده لا شریک له و ان محمدا عبده و رسوله و اقام الصلوة و ایتاء الزکات و حج البیت و صیام شهر رمضان فهذا الاسلام و قال الامان معرفة هذا الامر مع هذا فان اقر بها و لم یعرف هذا الامر کان مسلما و کان ضالا

**“İslam, dinin zahiri əməllərinin icrasına deyilir. Allahın yeganəliyinə, həzrət Məhəmmədin (s) Onun bəndəsi və rəsulu olduğuna şəhadət vermək, namaz qılmaq, zəkat vermək, Həcc ziyarətinə getmək, ramazan ayında oruc tutmaq bu qəbil-dəndir. İman isə onları icra etməklə yanaşı bizim imamətimizi tanımaqdır. Əvvəlki məsələlərə əməl edib, imamat məsələsini qəbul etməyən müsəlmandır, lakin yolunu azmışdır”**[1].

Namazın tərkib hissəsindən sayılan “Həmd” surəsində imamət məsələsinə işarə edilmişdir. Belə ki, bu surənin 6-cı ayəsində oxuyuruq:

اِهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ

**“Bizi doğru (düz) yola yönəlt!”**[2]

Məlum ayədə sözügedən “doğru yol” (الصِّرَاطَ الْمُسْتَقِيمَ) müxtəlif mənalarda işlədilmişdir. Belə ki, bir ayədə bu, Allahın sarsılmaz,

---

[1] “Kafi”, c.2, səh. 24.

[2] “Həmd”, 6.

həqiqi dini və onun əqidəvi prinsiplərinin toplusu kimi verilmişdir.

قُلْ إِنَّنِي هَدَانِي رَبِّي إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ دِينًا قِيَمًا مِّلَّةَ إِبْرَاهِيمَ حَنِيفًا وَمَا كَانَ مِنَ الْمُشْرِكِينَ

**“(Ya Rəsulum) De: "Şübhəsiz, Rəbbin məni doğru yola, həqiqi (düzgün) dinə, batildən haqqa tapınan və müşriklərdən olmayan İbrahimin dininə yönəltdi!"”**[1]

“Yasin” surəsində isə, Allaha pərəstiş etmək və insanları haqq yoldan azdıran şeytanın vəsvəsələrinə uymamaq kimi dəyərləndirilmişdir.

أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَن لَّا تَعْبُدُوا الشَّيْطَانَ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ وَأَنْ اعْبُدُونِي هَذَا صِرَاطٌ مُّسْتَقِيمٌ

**“Ey Adəm övladı! Məgər Mən sizdən əhd almadımmı ki, Şeytana ibadət etməyin, o sizin açıq-aşkar düşməninizdir və (sizə buyurmadımmı ki) Mənə ibadət edin, doğru yol budur?! “**[2]

Başqa bir ayədə isə Allaha qovuşmaq “doğru yol” olaraq göstərilmişdir.

وَكَيْفَ تَكْفُرُونَ وَأَنتُمْ تُتْلَى عَلَيْكُمْ آيَاتُ اللّهِ وَفِيكُمْ رَسُولُهُ وَمَن يَعْتَصِم بِاللّهِ فَقَدْ هُدِيَ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ

**“Sizə Allahın hökmləri oxunduğu və Onun Peyğəmbəri aranızda olduğu halda, siz necə kafir ola bilərsiniz? Allaha (Onun dininə) sığınan şəxs, şübhəsiz ki, doğru yola yönəldilmişdir”**[3].

---

[1] “ Ənam”, 161.

[2] “Yasin”, 60-61.

[3] “Ali-İmran”, 101.

Həmçinin, rəvayətlərdə bu ayəyə müxtəlif yönlərdən baxılaraq, eyni zamanda bir kökə əsaslanan digər şərhlər də verilmişdir.

İslam peyğəmbərindən (s) belə nəql edilir:

الصراط المستقيم صراط الا نبياء و هم الذين انعم الله عليهم

**“Sirat əl-müstəqim” peyğəmbərlərin yoludur. O peyğəmbərlər ki, onlara ilahi nemətlər verilmişdir”[1].**

İmam Sadiq (ə) isə bu ayəni təfsir edərkən buyurur:

الطريق و معرفة الامام

**“(Hədisdə) məqsəd İmamı tanımaq yoludur”[2].**

Başqa bir hədisdə o Həzrət (ə) buyurur:

و الله نحن الصراط المستقيم

**“Allaha and olsun, doğru yol (الصراط المستقيم) bizik”[3].**

İmam Sadiq (ə) həzrət Əmirəlmöminin Əlinin (ə) haqqında buyurur:

**“Sirat əl-müstəqim” Əmirəlmöminin Əlidir (ə)”[4].**

Məlumdur ki, Peyğəmbər (s), Əli (ə) və başqa məsum imamların (ə) vəzifəsi insanları Allahpərəstliyə, tövhid dininə dəvət etmək olmuşdur. Bu dəvət həm etiqadi, həm də əməli məsələləri əhatə etmişdir[5]. Namazda imamət məsələsinə işarə edilməsi onun İslam dinində mövcud əhəmiyyəti ilə bağlıdır.

---

1 “Nur əs-siqləyn”, c. 1, səh. 20-2.

2 Yenə orarda.

3 Yenə oarda.

4 “Nur əs-siqləyn”, c. 1, səh. 20-21.

5 “Təfsiri-nümunə”, c. 1, səh. 49-50.

Allah bizi "doğru yol"da addımlayan şəxslərdən qərar versin, inşallah.

## Namaz vaxtlarının əhəmiyyəti

Namazın şərtlərindən biri də onu vaxtında qılınmasıdır. Belə ki, gündəlik (yəvmiyyə) namazlarının - zöhr, əsr, məğrib, işa, sübh - həm özünəməxsus, həm də müştərək vaxtları vardır.

Namazı vaxtından tez qıldıqda batil, gec qıldıqda isə qəza olur. Belə olan halda, namaz qılan şəxs namaz vaxtlarını dəqiq öyrənməli və onu vaxtında həyata keçirməlidir. Namazı vaxtında qılmağın böyük fəziləti olduğu kimi, vaxtına əhəmiyyətsiz yanaşmağın da böyük kərahtləri var. Bu haqda İslam peyğəmbərindən (s) nəql edilən bir hədisdə oxuyuruq:

لا تضيعوا صلوا تكم فان ضيع صلاته حشر مع قارون و هامان و كان حقا على الله ان يدخله النار مع المنافقين

**"Öz namazlaırınızı (onu düzgün oxunmasına əhəmiyyət verməməklə) heç etməyin. Həqiqətən, hər kəs namazın vaxtına və düzgün icra edilməsi məsələlərinə riayət etməsə, məhşərə Qarun və Haman ilə birlikdə daxil olacaq və onun münafiqlərlə birlikdə Cəhənnəmə daxil edilməsi Allah üçün bir haqdır"[1].**

Qurani-kərimdə namaz vaxtları haqqında oxuyuruq:

أَقِمِ الصَّلاَةَ لِدُلُوكِ الشَّمْسِ إِلَى غَسَقِ اللَّيْلِ وَقُرْآنَ الْفَجْرِ إِنَّ قُرْآنَ الْفَجْرِ كَانَ مَشْهُودًا

**"Günortadan (gün batmağa meyl edəndən) gecənin qaranlığınadək namaz (günorta, ikindi, axşam və gecə**

---

[1] "Bihar əl-ənvar", c. 83, səh. 14.

**namazları) qıl. Sübh namazını da qıl. Çünki sübh namazı müşahidə olunur"[1].**

Ayədə qeyd olunan "لِدُلُوكِ الشَّمْسِ" ( dulukiş-şəms) günorta çağına deyilir ki, bu da zöhr namazının vaxtıdır.

Bu ayənin təfsiri haqqında Übeyd ibn Zürarə İmam Cəfər Sadiqdən (ə) soruşduqda o Həzrət (ə) ona cavab olaraq buyurdu: **"Allah dörd namazı insanlara vacib etmişdir ki, ilk vaxtı "dulukiş-səms" (zöhr ) namazı, sonu isə gecə yarısıdır"[2].**

"Zülmət qaranlıq" mənasında olan غَسَقِ اللَّيْلِ (ğəsəqil-ləyl) "gecə yarısı" mənasını ifadə edir. "Quran" qiraət edilən şeyə deyilir. "Quran əl-fəcr"قُرْآنَ الْفَجْرِ sübh namazının vaxtına işarədir.

İmam Əli (ə) namaz vaxtlarını belə aydınlaşdırır:

**"Zöhr namazını camaatla günəşin qüruba tərəf getdiyi, kölgəsi keçi tövləsi qədər yayıldığı vaxtda qılın. Əsr namazını günəşin ağ, işıqlı, günün yarısına qalmış və qüruba qədər iki fərsəx[3] yol getməyi mümkün olan vaxtda qılın. Məğrib namazını oruc tutanlar iftar, hacılar Ərəfatdan Minaya köçdükləri zaman qılın. İşa namazını camaatla şəfəqin gizləndiyi, üçdə biri keçdiyi bir vaxtda qılın. Sübh namazını camaatla yanınızda olan şəxsin kimliyini tanıya bildiyiniz vaxtda qılın"[4].**

---

[1] "İsra", 78.

[2] "Vəsail əş-şiə", c. 3, səh. 115.

[3] Altı kilometrə bərabər məsafə ölçüsü vahdi

[4] "Nəhcul-bəlağə", məktub, 52.

Xatırlamaq lazımdır ki, Qurani-kərimdə həm bir namaz vaxtına[1], həm üç namaz vaxtına[2] və həmdə beş namaz vaxtına[3] işarə edilmişdir.

## Namaza əhəmiyyətsiz yanaşmağın nəticələri

Namaza əhəmiyyət vermək Allahın böyük mükafatları ilə nəticələndiyi kimi, namaza diqqətsiz yanaşmaq da bir çox ilahi əzabları insanlara nazil edir. Qurani-kərimdə namaza əhəmiyyətsiz yanaşmaığın bəlaları haqqında olan bir neçə ayəni a diqqətinizə çatdırırıq.

## Namaz qlmamaq insanın dünya və axirət həyatını çətinləşdirir

Allahı xatırlamaq, onu zikr etmək böyük səadətə səbəb olduğu kimi, Onu yaddan çıxartmaq, namaz və s. dini vacibatlara etinasız yanaşmaq da böyük ilahi əzabların nazil olmasına səbəb olur. Qurani-kərimdə oxuyuruq:

وَمَنْ أَعْرَضَ عَن ذِكْرِي فَإِنَّ لَهُ مَعِيشَةً ضَنكًا وَنَحْشُرُهُ يَوْمَ الْقِيَامَةِ أَعْمَى

“Hər kəs Mənim öyüd-nəsihətimdən (Qurandan) üz döndərsə, güzəranı daralar (yaxud qəbir evində şiddətli əzaba düçar olar) və Biz qiyamət günü onu məhşərə kor olaraq gətirərik!”[4].

Başqa bir ayədə Allah namazı yüngül sayanlara ağır xitab edərək buyurur:

---

[1] “Bəqərə”, 238.

[2] “Hud”, 114.

[3] “İsra”, 78.

[4] “Taha”, 124.

فَوَيْلٌ لِّلْمُصَلِّينَ الَّذِينَ هُمْ عَن صَلَاتِهِمْ سَاهُونَ

**"Vay olsun namaz qılanların halına. O namaz qılanlar ki, namazlarına yüngül yanaşırlar"[1].**

"Qiyamət" surəsində isə namaza etinasız yanaşıb, tərk edənlər haqqında oxuyuruq:

فَلَا صَدَّقَ وَلَا صَلَّى ثُمَّ ذَهَبَ إِلَى أَهْلِهِ يَتَمَطَّى وَلَكِن كَذَّبَ وَتَوَلَّى ثُمَّ ذَهَبَ إِلَى أَهْلِهِ يَتَمَطَّى

أَوْلَى لَكَ فَأَوْلَى ثُمَّ أَوْلَى لَكَ فَأَوْلَى أَيَحْسَبُ الْإِنسَانُ أَن يُتْرَكَ سُدًى

**"(O gün deyirlər:) "İman gətirmədi və namaz qılmadı". "Amma təkzib etdi və üz döndərdi". "Sonra təkəbbürlə yeriyərək ailəsinə tərəf getdi". (Əzab) sənə layiqdir, sənə yenə də sənə layiqdir, sənə. Məgər insan öz başına buraxılacağını güman edir?"[2]**

Namaza yüngül yanaşmaq insanın məişətini darlaşdırdığı kimi, onu axirət səadətindən, Qiyamət günü Allaha qovuşmağından da məhrum edir. Rəsuli-əkrəm bu haqda (s) buyurur:

ليس منى من استخف بصلوته لا يرد على الحوض لا والله

**"Namazını yüngül sayanlar məndən deyil. Allaha and olsun ki, belə bir şəxs mənim yanıma (Kovsər hovuzuna) gələ bilməz"[3].**

Əbu Bəsir deyir: "Mən Ümmü-Həmidənin yanına gedib İmam Cəfər Sadiqin (ə) dünyasını dəyişməsi münasibəti ilə ona başsağlığı verdim. Bu zaman onu ağlayan görüb mən də ağladım. Sonra dedi: "Ey Əba Məhəmməd, əgər İmamı (ə) can

---

[1] "Maun", 4-5.

[2] "Qiyamət", 31-36.

[3] "Mən la yəhzuruhul fəqih", c. 1, səh.

verən halda görsəydin qəribə şeylər hiss edərdin. O, son anlarında gözlərini açıb buyurdu: "Mənimlə qohum olan bütün şəxsləri bir yerə yığın". Biz hamımız bir yerə toplaşdıqdan sonra Həzrət (ə) buyurdu: **"Həqiqətən, bizim şəfaətimiz namazı yüngül sayanlara yetişməz"**[1].

## Namazdan üz döndərmək İlahi əzaba uğramaqdır

Namazı tərk etməyin bəlalarından biri də insanın şəhvətə uyması və sonu olmayan bir əzaba uğramasıdır. Qurani-kərimdə bu haqda oxuyuruq:

فَخَلَفَ مِن بَعْدِهِمْ خَلْفٌ أَضَاعُوا الصَّلوةَ وَاتَّبَعُوا الشَّهَوَاتِ فَسَوْفَ يَلْقَوْنَ غَيًّا

**"Onlardan sonra namazı tərk edib şəhvətə uyan bir nəsil gəldi. Onlar (Cəhənnəmdəki) Ğəyy dərəcəsinə düşəcəklər (Yaxud, onlar da öz əməllərinin cəzasını alacaqlar)"[2].**

Allahla insan arasında əlaqə kəsildikdə insan tamamilə maddiləşib mənəviyyatdan uzaqlaşır. Mənəvi yöndən uzaq düşmüş şəxsi isə şeytan asanlıqla azdıraraq öz damına salır.

"Zuxruf" surəsində oxuyuruq:

وَمَن يَعْشُ عَن ذِكْرِ الرَّحْمَنِ نُقَيِّضْ لَهُ شَيْطَانًا فَهُوَ لَهُ قَرِينٌ

**"Hər kəs Rəhmanın zikrindən boyun qaçırsa, Biz ona Şeytanı urcah edərik və onun (Şeytanın) yaxın dostu olar."** [3]

Bəzən, Allaha ibadətdən (namaz, oruc, zəkat, xums və s.) uzaq düşən, şeytana uyan şəxslər elə güman edirlər ki, haqq yolunda addımlayır və heç bir günah işlətmirlər.

وَإِنَّهُمْ لَيَصُدُّونَهُمْ عَنِ السَّبِيلِ وَيَحْسَبُونَ أَنَّهُم مُّهْتَدُونَ

---

[1] "Vəsail əş-şiə", c. 4, səh. 26.

[2] "Məryəm", 59.

[3] "Zuxruf", 36.

**“(Şeytanlar) onları doğru yoldan çıxardar, onlar isə özlərinin haqq yolda olduqlarını güman edərlər!”[1].**

Şübhəsiz, şeytanxislət şəxslər tərəddüd etmədən bütün fəsadlara boyun əyəcək və beləliklə Allahın zikrindən - namazdan uzaq düşməklə əbədi olaraq Cəhənnəm əhlinə çevriləcəklər.

وَقَالَ رَبُّكُمُ ادْعُونِي أَسْتَجِبْ لَكُمْ إِنَّ الَّذِينَ يَسْتَكْبِرُونَ عَنْ عِبَادَتِي سَيَدْخُلُونَ جَهَنَّمَ دَاخِرِينَ

**“Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim! (Məni çağırın, harayınıza yetişərəm, yaxud yalnız Mənə ibadət edin, sizi mükafatlandıraram!) Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar Cəhənnəmə zəlil olaraq girəcəklər!”[2]**

Başqa bir ayədə isə oxuyuruq ki, Cənnət sakinləri Cəhənnəm əhlindən atəşdə yanmaqlarının səbəbini soruşduqda namaz qılmadıqlarını deyəcəklər.

فِي جَنَّاتٍ يَتَسَاءَلُونَ عَنِ الْمُجْرِمِينَ مَا سَلَكَكُمْ فِي سَقَرَ قَالُوا لَمْ نَكُ مِنَ الْمُصَلِّينَ

**“Onlar cənnətlərdədirlər; bir-birindən soruşacaqlar; Günahkarlar barəsində (və sonra həmin günahkarlara müraciət edib belə deyəcəklər): "Sizi Səqərə (Cəhənnəmə) salan nədir?" Onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik”[3].**

## Namazı məsxərə edənlər nadanlardır

Bəzi maddi mənafeyə aldanmış şəxslər özlərini müasir dünyanın insanları hesab edərək dinə və xüsusi ilə dinin sütunu

---

[1] “Zuxruf”, 37.

[2] “Ğafir”, 60.

[3] “Muddəssir”, 40-43.

hesab edilən namaza tənə vurur və namaz qılan şəxsləri məsxərə edirlər. Allah-taala belə şəxslərin avam, cahil, ağılsız olduqlarını bəyan edir.

وَإِذَا نَادَيْتُمْ إِلَى الصَّلوةِ اتَّخَذُوهَا هُزُوًا وَلَعِبًا ذَلِكَ بِأَنَّهُمْ قَوْمٌ لاَّ يَعْقِلُونَ

**"Siz (bir-birinizi) namaza çağırdığınız zaman onlar onu oyun-oyuncaq sayarlar. Bu, onların anlamaz bir tayfa olmalarındandır"**[1]**.** Belə şəxslər haqq yolundan azmışlar, heç bir sağlam əqidəyə malik olmayan fasiq insanlardır. Məlum ayənin davamında onlar haqqında oxuyuruq:

قُلْ يَا أَهْلَ الْكِتَابِ هَلْ تَنقِمُونَ مِنَّا إِلاَّ أَنْ آمَنَّا بِاللّهِ وَمَا أُنزِلَ إِلَيْنَا

وَمَا أُنزِلَ مِن قَبْلُ وَأَنَّ أَكْثَرَكُمْ فَاسِقُونَ

**"(Ya Rəsulum!) De: "Ey kitab əhli! Bizdən xoşunuz gəlməməyi yalnız bizim Allaha, bizə nazil edilənə və bizdən daha əvvəl nazil edilənlərə inanmağımıza və sizin əksəriyyətinizin fasiq olmasınamı görədir?!"**[2]

Günümüzdə də bir dəstə aldanmış şəxslər özlərini "post-modernist" adlandıraraq İslam düşmənlərinin sözçülərinə çevrilmiş, heç bir dini dəyəri tədqiq və tətbiq etmədən heç bir məntiqə sığmayan fikirlər irəli sürürlər. Təbii ki, onların cavabları savadlı dindarlar tərəfindən verilir. Lakin, bu aldanmış şəxslər himayədarlarından aldıqları pul hesabına və qəlblərində olan qərəz üzündən sözlərinə ara vermirlər.

[1] "Maidə", 58.

[2] "Maidə", 59.

## Ailədə namaz

Ailə ictimaiyyətin təməl daşı hesab olunur. Əgər bu təməl daşı sağlam və düzgün ailə tərbiyəsi əsasında qoyularsa, pak bir mühitin ərsəyə gəlməsinə zəmin olacaq. Amma, əgər ailədə təlim-tərbiyə sönük və puç əxlaqi prinsiplərə əsaslanarsa, təbii ki, qeyri-insani bir cəmiyyətin formalaşmasına səbəb olacaqdır. Övladlarının dinin qarşıya qoyduğu əxlaqı dəyərlər əsasında tərbiyə olunmasını istəyən şəxs ilk olaraq özü dini vacibatları icra edib, sonra uşaqlarını da bu gözəl işə cəlb etməlidir.

Ailədə valideynin ümdə vəzifələrindən biri də övladlarına namaz öyrətməkdi. Çünki, Qurani-kərimin dəfələrlə təkid etdiyi namaz insanı fəsad və pozğunluqlardan uzaq tutur və onların dünya və axirət səadətini təmin edir.

Kimliyindən asılı olmayaraq namaz bütün ailələrdə, hətta Peyğəmbərin (s) evində bərpa olunmalıdır. Allah Qurani-kərimdə İslam peyğəmbərinə (s) buyurur:

وَأْمُرْ أَهْلَكَ بِالصَّلوةِ وَاصْطَبِرْ عَلَيْهَا لَا نَسْأَلُكَ رِزْقًا نَّحْنُ نَرْزُقُكَ وَالْعَاقِبَةُ لِلتَّقْوَى

**“Əhlinə (əhli-beytə və ümmətinə) namaz qılmağı əmr et, özün də ona (namaza) səbirlə davam et (yaxud məişət çətinliklərinə döz). Biz səndən ruzi istəmirik, (əksinə) sənə ruzi verən Bizik. (Gözəl) aqibət təqva sahiblərinindir (müttəqilərindir)!”**[1]

Həmçinin, Qurani-kərimdə həzrət İsmayılın (ə) ailəsinə namaz qılmağı əmr etməsinə şahid oluruq.

وَكَانَ يَأْمُرُ أَهْلَهُ بِالصَّلوةِ وَالزَّكَوةِ وَكَانَ عِندَ رَبِّهِ مَرْضِيًّا

[1] “Taha”, 132.

**“O öz ailəsinə namaz qılmağı, zəkat verməyi əmr edirdi. O, Rəbbinin rizasını qazanmışdı. (İsmayılın əməli Allah dərgahında bəyənilmişdi)”**[1]**.**

Qurani-kərimdə həkim kimi tanıtdırılan, oğlunu əxlaqi dəyərlərə sövq edən həzrət Loğman (ə) ilk olaraq övladını namaza dəvət edir, sonra digər vacib əməllərin icrasını ondan tələb edir.

يَا بُنَيَّ أَقِمِ الصَّلَاةَ وَأْمُرْ بِالْمَعْرُوفِ وَانْهَ عَنِ الْمُنكَرِ وَاصْبِرْ عَلَى مَا أَصَابَكَ إِنَّ ذَلِكَ مِنْ عَزْمِ الْأُمُورِ

“**Oğlum! Namaz qıl, (insanlara) yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. (Bu yolda) sənə üz verəcək müsibətlərə döz. Həqiqətən, bu (dediklərim) vacib əməllərdəndir!”**[2]

Bütün valideynlər övladlarının bu vacib əməli yerinə yetirmələri üçün çalışmalı və Allaha, Əhli-beytə (ə) bu işin tezliklə həyata keçməsi üçün dua etməlidirlər. Necə ki, İbrahim Xəlilullah (ə) ailəsinin namaz əhli olması üçün dua edərək buyurur:

رَبِّ اجْعَلْنِي مُقِيمَ الصَّلوةِ وَمِن ذُرِّيَّتِي رَبَّنَا وَتَقَبَّلْ دُعَاءِ

“Ey Rəbbim! Məni də, nəslimdən olanları da (vaxtlı-vaxtında, lazımınca) namaz qılan et. Ey Rəbbimiz! Duamı qəbul et!”[3]
İslam peyğəmbəri (s) uşaqlar yeddı yaşına yetdiyi zaman onlara namazın öyrədilməsinin məsləhət olduğunu buyurur:

**“Övladlarınız yeddi yaşına çatdığı zaman onlara namazı öyrədin”**[4].

---

1 “Məryəm”, 55.

2 “Loğman”, 17.

3 “İbrahim”, 40.

4 “Mustədrəkul-vəsail”

## Namazın dünya və axirət faydaları

Namaz həm insanın maddi həyatını zənginləşdirən, həm də axirət səadətini təmin edən bir ibadətdir. Yazımızın bu hissəsində namazın dünya və axirət faydalarından söz açmağı lazım bilirik.

## Namaz qəlbin təskinliyidir

Namaz çox mahiyyətli bir ibadətdir. Belə ki, bu ibadət həm insanın dünyasını, həm də axirətini abad edir. Namazın insan cisminə xeyri olduğu kimi, ruhuna, mənəviyyatına da böyük təsir bağışlayır. Sıxıntılar qarşısında əzab çəkən insan heç bir vasitə ilə aram olmadıqda Allaha etdiyi bir neçə dəqiqəlik ibadət onun ruhiyyəsini təmamilə dəyişir və ona yeni ruh təskinliyi bağışlayır. Qurani-kərimdə qəlbə rahatlıq bəxş edə bilən şeyin yalnız namaz olduğu xatırladılır:

الَّذِينَ آمَنُواْ وَتَطْمَئِنُّ قُلُوبُهُم بِذِكْرِ اللّهِ أَلاَ بِذِكْرِ اللّهِ تَطْمَئِنُّ الْقُلُوبُ

**“O kəslər ki, Allaha iman gətirmiş və qəlbləri Allahı zikr etməklə aram tapmışdır. Bilin ki, qəlblər (möminlərin ürəkləri) yalnız Allahı zikr etməklə aram tapar!”**[1]

Başqa bir ayədə isə Allah insanların çətin bir vəziyyətə düşməsini, özlərinə zülm etmələrini xatırladaraq nicatlarının yalnız namazda olduğunu buyurur:

وَالَّذِينَ إِذَا فَعَلُواْ فَاحِشَةً أَوْ ظَلَمُواْ أَنْفُسَهُمْ ذَكَرُواْ اللّهَ فَاسْتَغْفَرُواْ لِذُنُوبِهِمْ وَمَن يَغْفِرُ الذُّنُوبَ
إِلاَّ اللّهُ وَلَمْ يُصِرُّواْ عَلَى مَا فَعَلُواْ وَهُمْ يَعْلَمُونَأُوْلَئِكَ جَزَآؤُهُم مَّغْفِرَةٌ مِّن رَّبِّهِمْ وَجَنَّاتٌ تَجْرِي مِن
تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا وَنِعْمَ أَجْرُ الْعَامِلِينَ

[1] “Rəd”, 28.

**“O müttəqilər ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb (tövbə edərək) günahlarının bağışlanmasını istəyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Və onlar etdiklərini (gördükləri işin pis olduğunu) bildikdə (tövbədən sonra) bir daha ona qayıtmazlar. Onların mükafatı öz Rəbbi tərəfindən bağışlanmaq və (ağacları) altından çaylar axan cənnətlərdir ki, orada əbədi qalacaqlar. Yaxşı işlər görənlərin mükafatı nə gözəldir!”**[1]

Rəvayətlərdən də məlum olur ki, möminlərin qəlbinin sevinci, könüllərinin şad olması Allahın zikri ilə bağlıdır. İmam Sadiq (ə) belə nəql edir:

“Allah Davud peyğəmbərə (ə) buyurdu: “Mənimlə (məni xatırlamaqla) şad ol, məni xatırlamaqla sevin və mənimlə münacat etmək nemətindən faydalan”[2].

## Namaz günahların qarşısında möhkəm sipərdir

Namazın hikmətlərindən biri də onun həm insanı günahdan saxlaması, həm də keçmiş günahlarının bağışlanmasına səbəb olmasıdır. Başqa ifadə ilə desək, namaz bir növ insanı günahdan sığortalayır və onu ən əzəmətli şəxsə - Allaha qovuşdurur. Bu haqda Qurani-kərimdə oxuyuruq:

اتْلُ مَا أُوحِيَ إِلَيْكَ مِنَ الْكِتَابِ وَأَقِمِ الصَّلوةَ إِنَّ الصَّلوةَ تَنْهَى عَنِ الْفَحْشَاءِ وَالْمُنكَرِ وَلَذِكْرُ
اللهِ أَكْبَرُ وَاللهُ يَعْلَمُ مَا تَصْنَعُونَ

**“(Ya Rəsulum!) Quranda sənə vəhy olunanı oxu və (vaxtlı-vaxtında) namaz qıl. Həqiqətən, namaz (insanı) çirkin və pis əməllərdən çəkindirər. Allahı zikr etmək (Allahın calalını və**

[1] “Ali-İmran”, 135-136.

[2] “Mizanul-hikmət”, hədis. 20035.

**əzəmətini həmişə, hər yerdə yada salmaq), şübhəsiz ki, (savab etibarilə bütün başqa ibadətlərdən) daha böyükdür. Allah nə etdiklərinizi (bütün yaxşı və pis əməllərinizi) bilir!"**[1]

Başqa bir ayədə isə Allah-taala namaz qılmağa təkid edərək xeyir işlərin (xüsusi ilə namazın) günahları aradan aparmasını önə çəkir:

إِنَّ الْحَسَنَاتِ يُذْهِبْنَ السَّيِّئَاتِ ذَٰلِكَ ذِكْرَىٰ لِلذَّاكِرِينَ

**"Həqiqətən, (beş vaxt qılınan namaz kimi) yaxşı əməllər pis işləri (kiçik günahları) yuyub aparar. Bu, (Allahın mükafatını və cəzasını) yada salanlara öyüd-nəsihətdir (xatırlatmadır)"[2].**

İmam Sadiq (ə) bir misal çəkməklə namazın insan günahlarını necə aradan aparmasına aydınlıq gətirir.

"Əgər sizlərdən birinin qapısından bir çay axsa və o şəxs hər gün orda beş dəfə yuyunsa, onun bədənində çirk qalarmı? Həqiqətən, namaz belə bir çaya bənzəyir. Namaz qılan şəxsin namazı onun günahlarının kəffarəsidir. Amma, bir şəxsin imandan çıxıb, kafir olmasına səbəb olan günahlar heç vaxt yuyulmaz və belə şəxs həmin günahda qalar"[3].

## Namaz insanı qəflətdən uzaqlaşdırır

İnsanın yaradılışında əsas məqsəd Allaha pərəstiş etməkdir. Bu çərçivədən kənara çıxan şəxs Allaha qarşı çıxaraq bəndəlik vəzifəsinə xəyanət etmiş olur. Belə olan halda, insanların yadına kim olduqlarını, niyə yaradıldıqlarını, əsas vəzifələrinin nədən ibarət olduğunu yada salmaq üçün bir vasitəyə ehtiyac duyulur. Qurani-kərimin buyuruğuna əsasən insanları qəflətdən oyadan vasitələrdən biri də namazdır.

---

[1] "Ənkəbut", 45.

[2] "Hud", 114.

[3] "Bihar əl-ənvar", c. 82, səh. 236.

إِنَّنِي أَنَا اللَّهُ لَا إِلَٰهَ إِلَّا أَنَا فَاعْبُدْنِي وَأَقِمِ الصَّلَوٰةَ لِذِكْرِي

**"Mən, həqiqətən, Allaham. Məndən başqa heç bir tanrı yoxdur. Mənə ibadət et və Məni anmaq üçün namaz qıl!"[1]**

Rəsuli-əkrəm (s) qəflətdə olan insanları məzəmmət edərək buyurur:

**"Sanki bu dünyada haqq bizə yox, başqalarına vacib, ölüm isə başqaları üçün təyin edilmişdir. Sanki, dəfn mərasimlərində iştirak etdiyimiz şəxslər müsafirlərdirlər və tezliklə yanımıza qayıdacaqlar. Cəsədlərini qəbrə qoyur, miraslarını mənimsəyirik. Sanki biz bu dünyada qalası olasıyıq. Bütün nəsihətləri unudur və baş verən hadisələr qarşısında özümüzü amanda hiss edirik"[2].**

Bütün təbii fəlakətlərdən, baş verən amansız hadisələrdən ibrət alanlar inanc əhli olan namaz qılanlardır. Onlar öz haylarına qalır və Qiyamət günündə heç bir şəxsin imdadına yetə bilməyəcəklərini bilirlər. Qurani-kərim bunu çox gözəl açıqlayır:

وَلَا تَزِرُ وَازِرَةٌ وِزْرَ أُخْرَىٰ وَإِن تَدْعُ مُثْقَلَةٌ إِلَىٰ حِمْلِهَا لَا يُحْمَلْ مِنْهُ شَيْءٌ وَلَوْ كَانَ ذَا قُرْبَىٰ إِنَّمَا
تُنذِرُ الَّذِينَ يَخْشَوْنَ رَبَّهُم بِالْغَيْبِ وَأَقَامُوا الصَّلَوٰةَ وَمَن تَزَكَّىٰ فَإِنَّمَا يَتَزَكَّىٰ لِنَفْسِهِ وَإِلَى اللَّهِ الْمَصِيرُ

**"Heç bir günahkar başqasının günahını daşımaz. Günah yükü ağır olan kimsə yükünü daşımaq üçün (başqa birisini köməyə) çağırsa və (çağırılan adam onun) yaxın qohumu olsa belə, o yükdən bir şey daşınmaz. (Ya Peyğəmbər!) Sən ancaq Rəbbindən (Onun əzabını) görmədikləri halda qorxanları və (vaxtlı-vaxtında) namaz qılanları qorxudub xəbərdar edirsən. Hər kəs (günahlardan, küfrdən) təmizlənsə, özü üçün təmizlənmiş olar (savabı özünə yetişər). Axır dönüş ancaq Allahadır!"[3]**

---

[1] "Taha", 14.

[2] "Nəhcul-fəsahə", "Qəflət" bölümü.

[3] "Fatir", 18.

## Namaz yanılış əqidələrin qarşısını alır

Bugünkü dünyamızda yeni-yeni müxtəlif şübhələr möminlərin ətrafını mühasirə etməkdədir. Bir tərəfdən, müxtəlif missioner təşkilatlarının geniş miqyasda fəaliyyətləri, digər baxımdan, din daxili məzhəb münaqişələri və hər bir firqənin özünəməxsus təbliğat üslubu insanları çaş-baş salmaya bilmir. Bu idiologiya müharibəsindən amanda qalmaq üçün dini kifayət qədər öyrənilməli, dünyagörüşü formalaşmalıdır.

Bütün bunlardan əlavə, Allahın əmrlərinə itaət edib, qadağalarına meyl etməyən təqvalı insanlara haqla batili ayırd edə bilən bir qüdrət bəxş edilir. Qurani-kərimdə Allaha iman gətirən şəxslərə buyurur:

يِا أَيُّهَا الَّذِينَ آمَنُواْ إَن تَتَّقُواْ اللّهَ يَجْعَل لَّكُمْ فُرْقَاناً وَيُكَفِّرْ عَنكُمْ سَيِّئَاتِكُمْ

وَيَغْفِرْ لَكُمْ وَاللّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ

**“Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla-nahaqı ayırd edən (bir nur) verər (dünyada və axirətdə çıxış yolu göstərər), günahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük lütf (mərhəmət) sahibidir”**[1]**.**

Həmçinin, Allaha təvəssül edib, namaz qılmaq bu faciələrdən amanda qalmaq üçün ən yaxşı hidayət vasitəsidir. Həzrət Şüeyb (ə) öz qövmünü yanlış inanclardan uzaqlaşdırdıqda onlar o həzrətə onu bu işə vadar edən şeyin namaz olduğunu deyirdilər:

قَالُواْ يَا شُعَيْبُ أَصَلاَتُكَ تَأْمُرُكَ أَن نَّتْرُكَ مَا يَعْبُدُ آبَاؤُنَا أَوْ أَن نَّفْعَلَ

فِي أَمْوَالِنَا مَا نَشَاءُ إِنَّكَ لَأَنتَ الْحَلِيمُ الرَّشِيدُ

**“Onlar (istehza ilə) dedilər: "Ey Şüeyb! Atalarımızın tapındığı bütləri tərk etməyimizi, mallarımızla istədiyimiz kimi hərəkət**

---

[1] “Ənfal”, 29.

**etməkdən vaz keçməyimizi sənə namazınmı əmr edir? Sən doğrudan da, həlim xasiyyətlisən, çox ağıllısan!"**[1]

## Namaz ilahi nemətlərin nazil olma səbəbidir

Bütün xeyir işlər Allahın nemətlərinin nazil olmasına səbəb olur. Bu, istər insanın özünü islah etməyə çalışıb, nəfsini saflaşdırmağa səyi, istərsə də özü ilə yanaşı digərlərinin də xeyrinə çalışaraq bacardığı qədər yardımçı olması ilə həyata keçə bilər.

Qurani-kərimdə Allahın rəhmətinin nazil olma səbəblərindən biri də namaz qılmaqdır. "Nur" surəsinin 56-cı ayəsində bu haqda oxuyuruq:

وَأَقِيمُوا الصَّلوةَ وَآتُوا الزَّكَوةَ وَأَطِيعُوا الرَّسُولَ لَعَلَّكُمْ تُرْحَمُونَ

**"Namaz qılın, zəkat verin və Peyğəmbərə itaət edin ki, sizə rəhm olunsun!"**[2]

Allahı xatırlamaq, bütün işləri Onun göstərişinə uyğun şəkildə tənzimləmək ən böyük mənfəətdir. Çünki, Allahı yada salan şəxsi Allah da yada salır. Şübhəsiz, Allahın diqqət mərkəzində olan şəxsin dünya və axirətdə heç bir nigaranlığı olmayacaqdır. Allah buyurur:

فَاذْكُرُونِي أَذْكُرْكُمْ

**"Məni xatırlayın ki, mən də sizi xatırlayım"[3].**

Başqa bir ayədə isə Allaha tabe olub, namaz qılanların, öz mallarından ehsan edən şəxslərin zərərsiz ticarət etdikləri bəyan edilir:

إِنَّ الَّذِينَ يَتْلُونَ كِتَابَ اللهِ وَأَقَامُوا الصَّلوةَ وَأَنفَقُوا مِمَّا رَزَقْنَاهُمْ

سِرًّا وَعَلَانِيَةً يَرْجُونَ تِجَارَةً لَّن تَبُورَ

---

1 "Hud", 87.

2 "Nur", 56.

3 "Bəqərə", 152.

**“Allahın Kitabını oxuyan, namaz qılan, özlərinə verdiyimiz ruzilərdən (Allah yolunda) gizli və aşkar xərcləyənlər kasad olmayacaq bir ticarət (savab) umarlar...”[1].**

Belə olan halda, ömür sərmayəsini Allahla ticarət etməkdə sərf edərək dünya və axirət səadətini əldə edək.

## Namaz qılmaq insanın nicatıdır

İnsan özünü nafsani istəklərdən qoruyub, Allaha pərəstiş etməklə öz şəxsiyyətinə önəm verir. Maddi maraqlarının quluna çevrilməyən mömin insan azad yaşayır, sağlam düşünür və həmişə böyük ruh yüksəkliyi ilə həyatını davam edir. Onun belə yaşamasına səbəb ən uca bir qüdrətə - Allaha  bağlı və kiçik, puç ünsürlərdən asılı olmamasıdır. Allah-taala bu gözəl əxlaq sahiblərini Qurani-kərimdə yad edərək onları nicat tapmışlar adlanıdırır.

**“(Günahlardan) təmizlənən kimsə isə nicat tapacaqdır. O kimsə ki, Rəbbinin adını zikr edib namaz qılar!”[2]**

Başqa bir surədə Allahın digər fərzləri ilə yanaşı  namaz qılanların uca şəxsiyyətli olmasına işarə edilir.

قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ الَّذِينَ هُمْ فِي صَلَاتِهِمْ خَاشِعُونَ

**“Həqiqətən, möminlər nicat tapmışlar! (Cənnətə nail olmaqla mətləblərinə çatıb əbədi səadətə qovuşmuşlar!)**

**O kəslər ki, namazlarında (hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha) müti olub (Ona) boyun əyərlər! (Allahın qarşısında kiçilərlər!)”[3].**

---

[1] “Fatir”, 29.

[2] “Əla”, 14-15.

[3] “Muminin”, 1-2.

## Namaz fərdi və cəmiyyəti islah edir

Ümumiyyətlə, Allahın əmrlərini yerinə yetirib, haram edilən əməllərdən uzaqlaşmaq yer üzündə ən mütərəqqi dövlətin yaranmasına səbəb olar. İslam dinində əmr xarakteri daşıyan şeylər insanları elmə, ədalətə, bərabərliyə, mübarizəyə, çalışmağa, səadətə və s. dəvət etdiyi halda qadağalar isə onları azğınlıqdan, zəlalətdən uzaqlaşdırır.

Dinin vacib əməllərindən biri olan namaz da bu keyfiyyətə malikdir. Qurani-kərimdə Allah bu məsələni belə xatırladır:

وَالَّذِينَ يُمَسِّكُونَ بِالْكِتَابِ وَأَقَامُواْ الصَّلٰوةَ إِنَّا لاَ نُضِيعُ أَجْرَ الْمُصْلِحِينَ

**“Kitabdan (möhkəm) yapışanlar, (vaxtlı-vaxtında, lazımınca) namaz qılanlar (bilsinlər ki) Biz əməlisalehlərin mükafatını zay etmirik!”**[1]

Ötən mövzularda qeyd edildiyi kimi, dini inanc insanı bütün çirkinliklərdən, nəfsani istəklərin ifrat halı alması təhlükəsindən xilas edir. Dinin qaydalarına əməl edən şəxs formalaşmış bir fərd olduğu üçün özünə hörmətlə yanaşdığı kimi, başqaları ilə də hörmətlə davranır və özünü rəzil əxlaqi keyfiyyətlərdən islah etdiyi kimi başqalarını da bu keyfiyyətdə görməyə çalışır. Cəmiyyəti təşkil edən fərdlər olduğu üçün onların islahı böyük bir kütlənin islah olunması ilə nəticələnir.

***Sonda Allahdan diləyirik ki, bütün möminləri əsl bəndə olmaqda müvəffəq edib, dünya və axirət səadətini onlara nəsib etsin! Amin!***

[1] “Əraf”, 170.

# Mündəricat


*Ön söz* .......... **3**

*Namazın əhəmiyyət və dəyəri* .......... **4**

*Allahı  xatırlamağın yolu namazdır* .......... **6**

*Namaz İlahi dəstəkdir* .......... **11**

*Namaz Allaha təşəkkür etməkdir* .......... **13**

*Namaz məada inancın nişanəsidir* .......... **17**

*Namaz dini qardaşlıq şərtidir* .......... **21**

*Namaz heç bir halda tərk edilməyən ibadətdir* .......... **23**

*Namaz qılmaq hamının vəzifəsidir* .......... **26**

*Cümə namazının əhəmiyyəti* .......... **27**

*İslamdan qabaqkı dinlərdə namaz* .......... **29**

*Əsl namaz qılan şəxslər* .......... **35**

*Təqva əhli namaz qılanlardır* .......... **35**

*Allah yolunda ehsan edən namaz qılnalar* .......... **39**

*Namaz təvazökarlıq nişanəsidir* .......... **41**

*İman sahibləri namaz qılanlardır* .......... **42**

*Allah övliyaları namazı unutmurlar* .......... **44**

*Gözəl əxlaq sahibləri həmişə namaz qılırlar* .......... **47**

*Möminlər namazlarını qoruyurlar* .......... **49**

*Namaz uğrunda nə etməli?* .......... **51**

*Məscidin memarı namaz qılan olmalıdır* .......... **54**

*Evlər qibləyə tərəf tikilməlidir* .......... **56**

*Namaz qılanların məqamları* .......... **57**

*Namazı xüşu halında qılmaq* .......... **57**

*Namaz qılan zaman bəzənmək* ........................................................ **59**
*Gecəni sübhə qədər namaz qılanlar* ................................................ **61**
*Göz yaşı axıdaraq səcdə edənlər* .................................................... **63**
*Namaz başqa ibadətlərlə yanaşıdır* ................................................. **64**
*Namaz və Quran* .............................................................................. **64**
*Namaz və imamət məsələsi* .............................................................. **66**
*Namaz vaxtlarının əhəmiyyəti* ........................................................ **70**
*Namaza əhəmiyyətsiz yanaşmağın nəticələri* ..................................... **72**
*Namaz qlmamaq insanın dünya və axirət həyatını çətinləşdirir* .......... **72**
*Namazdan üz döndərmək İlahi əzaba uğramaqdır* ............................. **74**
*Namazı məsxərə edənlər nadanlardır* ................................................ **76**
*Ailədə namaz* .................................................................................... **77**
*Namazın dünya və axirət faydaları* ................................................... **79**
*Namaz qəlbin təskinliyidir* ................................................................ **79**
*Namaz günahların qarşısında möhkəm sipərdir* ................................. **80**
*Namaz insanı qəflətdən uzaqlaşdırır* .................................................. **82**
*Namaz yanılış əqidələrin qarşısını alır* .............................................. **83**
*Namaz ilahi nemətlərin nazil olma səbəbidir* ..................................... **84**
*Namaz qılmaq insanın nicatıdır* ......................................................... **85**
*Namaz fərdi və cəmiyyəti islah edir* .................................................. **86**
*Mündəricat* ....................................................................................... **87**